RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 260 (10005) 10 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan-Slovakiya: məsafəcə uzaq olsalar da, həqiqi dost ölkələr

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, dövlət başçıları ziyafətdə çıxış ediblər.

Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının Sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub. Slovakiya Milli Şurasının Sədri dövlətimizin başçısını qarşıladı. Azərbaycan Prezidenti xatirə kitabını imzaladı. Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının Sədri Rixard Raşi ilə təkbətək görüşü oldu. Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.

Həmin gün Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına rəsmi səfəri dekabrın 9-da başa çatıb. Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər yola saldılar.

2

## Əbədiyaşar Lider



Heydər Əliyev bir-birinə zidd olan iki sistemdə - sosializm və demokratik cəmiyyət şəraitində respublikamıza başçılıq etmiş, hər iki cəmiyyətdə özünün islahatçı iş üslubu və dəmir iradəsi ilə dövlət sistemində köklü dəyişikliklərə nail olmuşdur. 1970-ci ilə qədər ittifaq respublikaları içərisində geridə qalan, az qala böhrana düçar olan Azərbaycanı bu ağır sosial-iqtisadi vəziyyətdən çıxarmış, milli inkişaf və intibaha çatdırmışdır. Azərbaycan həmin dövrdə SSRİ-də yeganə olan Bakı Məişət Kondisionerləri zavodu, regionun ən nəhəng elektrik stansiyası, Cənubi Qafqazın ən iri Poladtökmə zavodu, neft sənayesi üçün vacib olan Bakı Dərin Özüllər Zavodu və bir çox iri müəssisəni istifadəyə verməklə sovetlərin güclü sənaye mərkəzlərindən birinə çevrilmişdi.

6

## İlham Əliyev diplomatiyasının daha bir uğuru



Prezident İlham Əliyev bildirib ki, Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq: "Bunun çox böyük potensialı vardır. Eyni zamanda bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 qiqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 qiqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik".

8

## Büdcə zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda qəbul olunub



Dekabrın 9-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda ilk olaraq "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, 2026-cı ilin dövlət büdcəsinin gəlirləri 38,6 milyard, xərcləri 41,7 milyard, kəsiri 3,1 milyard manat, icmal büdcənin gəlirləri 44,9 milyard, xərcləri 48,8 milyard, kəsiri isə 3,9 milyard manat təşkil etməklə üçüncü oxunuşda da dəyişməz olaraq qalır.

4

## Qlobal nüfuzun təzahürü



Ağ Ev rəhbəri Donald Trampın dövlətimizin rəhbəri İlham Əliyevə xüsusi rəğbət və yüksək ehtiram göstərməsi də diqqətçəkən vacib məqamdır ki, bu özlüyündə Azərbaycan Prezidentinin qlobal nüfuzundan və dünya miqyaslı lider olmasından xəbər verir.

6 dekabr tarixində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Prezident İlham Əliyevə göndərdiyi təşəkkür məktubu da buna əyani nümunələrdən biridir. Adıçəkilən məktubunda D.Tramp Nobel Sülh mükafatına namizədliyini irəli sürmək üçün birgə məktuba görə dövlətimizin başçısına təşəkkürünü bildirir: "Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq.

Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm".

9

## Azərbaycanın təklif etdiyi əməkdaşlıq formatları bütün tərəflərə uğur gətirir




Beynəlxalq aktorlar arasında rəqabət varsa, regional aktorlar arasında proseslərə daha yaxın durma meyli görünür. Bu da son dərəcə müsbətdir. Azərbaycan üçün isə bu, ikiqat uğurdur. Çünki Zəfərdən sonra Azərbaycan tərəfinin təklif etdiyi əməkdaşlıq formatları artıq reallaşır. Bu, birmənalı olaraq Azərbaycanın nailiyyətidir. Azərbaycan Mərkəzi Asiya regionu ilə də münasibətlərin qurulmasını Cənubi Qafqaz regionu üçün perspektivli məsələyə çevirməyi bacarır. Digər tərəfdən, Gürcüstanla yüksələn xətt üzrə inkişaf edən münasibətlər, bu ölkənin cəmiyyətində destruktiv amalların deyil, konstruktiv meyil üzərindən proseslərə praqmatik baxışlı siyasətin əsas götürülməsinə dəstək verir.

8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

# Azərbaycan-Slovakiya: məsafəcə uzaq olsalar da, həqiqi dost ölkələr

## Bratislavada Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib

**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, dövlət başçıları ziyafətdə çıxış ediblər.**



### Prezident Peter Pelleqrininin çıxışı

- Cənab Prezident, əziz İlham.

Hökumət nümayəndələri, xanımlar və cənablar, əziz dostlar.

Cənab Prezident, bu gün Sizi mötəbər nümayəndə heyətinizlə birlikdə Bratislava qəsrində salamlamaq mənim üçün böyük şərəfdir.

Mənim Sizin ölkənizə bir neçə dəfə səfər etmək imkanım olub. Həmişə doğma ölkəmizə ölkəniz haqqında güclü təəssüratlarla qayıtmışam. Ölkəniz minilliklər boyu özündə müdriklik, cəsarət və gözəlliyi əks etdirib. O, alov rəmzini təcəssüm etdirir. Bu, təkcə Abşeronun əbədi yanan alovu deyil. Bu, mehribanlıq, qətiyyət, mətanət və fəxarət alovudur. Sizin zəngin tarixiniz musiqidə yazılıb, lakin onu həm də Qobustan qayalarında görmək olar. Ötən il bu möhtəşəm yeri ziyarət etmək mənə nəsib oldu. Siz, cənab Prezident, ölkənizin gələcəyini ambisiya, innovasiya və inamla qurursunuz. Bratislavaya geri dönərkən mən də sizə yaxın olduğumuzu hiss etdim.

Coğrafi məsafənin bizi ayırdığına baxmayaraq, ilk baxışdan iki ölkə bir-birinə göründüyündən daha yaxındır. Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşuğunda yerləşmiş və bir-birindən uzaqda olan ölkələri tarixi ticarət yolları ilə birləşdirmişdir. Xalqınız digər millətlərə hörmət bəsləmək və dialoq qurmaq xüsusiyyəti ilə seçilir.

Slovakiya hazırda BMT və NATO-da dərin köklər salaraq tarixən güclər arasında toqquşmaların, rəqabətin şahidi olmuşdur və indi Avropanı Şərqlə birləşdirən regionda bir hab rolunu oynayır. Bütün hallarda biz dialoqun, diplomatiyanın, sülhün və beynəlxalq hüquqa hörmətin tərəfdarıyıq. Biz səmimi, açıqqəlbli, qonaqpərvər və ənənələri sevən bir xalqıq. Biz dostluğa, mehribanlığa və digər humanist keyfiyyətlərə hörmət göstərməyə sadiqik.

Ola bilsin məhz buna görə və həm də şəxsi təmaslarımız vasitəsilə illər boyunca qurduğumuz Slovakiya-Azərbaycan tərəfdaşlığı təbii bir tərəfdaşlıq kimi görünür və istənilən ab-havada daimi xarakter daşıyır. Biz həmişə sizin ərazi bütövlüyünüzə və münaqişənin davamlı, sülh yolu ilə həllinə dəstək göstərmişik. Avqustda imzalanmış razılaşma "sülhə nail olmaq mümkündür" kimi güclü mesaj verən böyük bir nailiyyətdir. Bu da dünyanın digər yerlərində bizlər üçün bir ilham mənbəyi olmalıdır. Enerji təchizatımız təhlükə altında olduqda biz Sizə müraciət edə bilərik.

Ötən il Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıqda biz münasibətlərimizə yeni enerji ilə təkan verdik. Sizin Bratislavaya ilk rəsmi səfəriniz bu münasibətlərin gücünü əks etdirir. Bu gün apardığımız müzakirələrin nəticələri onu göstərir ki, biz münasibətlərə diqqət yetirsək və onları daha da inkişaf etdirsək bunun bəhrəsini görərik. Biz bunu xüsusilə enerji, iqtisadiyyat və müdafiə sektorlarında görürük. Mübaliğəsiz deyə bilərəm ki, biz münasibətlərimizin yeni fəslinə qədəm qoyuruq. Biz bu sektorlarda əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar görürük və onlardan kənarda üzümüzə yeni fürsətlər açılır.

Ümidvaram ki, yeni imkanlar və əlaqələr, yeni iqtisadi imkanlar kəşf edə və turizm, mədəniyyət, yaxud idman sahəsində əməkdaşlıq vasitəsilə xalqlarımız arasında əlaqələr yarada bilərik.

Cənab Prezident, xanımlar və cənablar, biz etimad üzərində güclü, qarşılıqlı tərəfdaşlıq qurmuşuq.

Sağ olun.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident, əziz qonaqlar.

İlk növbədə, cənab Prezident, Slovakiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Qonaqpərvərliyinizə və dostluğunuza görə minnətdaram. Biz uzun müddətdir ki, bir-birimizi tanıyırıq, dəfələrlə görüşmüşük. Lakin bu, xüsusi statusa malik rəsmi səfərdir. Səfər böyük hörmətə və rəğbətə layiq, həqiqi dost olan ölkəyə həyata keçirilir. Ölkələrimiz kifayət qədər bir-birindən uzaqda yerləşsə də, Siz xalqlarımız arasında oxşarlığı qeyd etdiniz. Bu fikirlərinizə tam şərik çıxıram.

Aramızda çox oxşarlıqlar mövcuddur. Əsrlər boyu böyük imperiyaların tərkibində olmuşuq. Biz sosialist blokun dövlətləri hesab edilən ölkələrdə yaşamışıq. Müstəqil deyildik. Müstəqilliyimizin çox məhdud hüdudları olub. Demək olar ki, eyni vaxtda - 1990-cı illərin əvvəllərində əsl müstəqil ölkələr olduq. O vaxt müstəqilliyi və bütün təsisatları, həmçinin gələcəyimizi sıfırdan qurmalı idik. İndi isə 30 ildən bir qədər artıq müddətdə Slovakiyanın əldə etdiyi tərəqqiyə nəzər salsaq görərik ki, həmin irəliləyiş xalqınızın güclü iradəsi, tarixiniz, mədəniyyətiniz və milli mənsubiyyətiniz sayəsində əldə olunub. Bu gün böyük təəssürat bağışlayan qədim qəsrdə birgə olduğumuz zaman mən bir daha enerjili, müqavimətli və müstəqil siyasət yürütməkdə bacarıqlı olmağınızın mənbəyini gördüm.

Əsrlər boyu milli mənsubiyyətinizi qoruyub saxlaya bilmisiniz, baxmayaraq ki, bu, asan deyildi. Çox millətlər tarix boyu assimilyasiyaya uğrayıb. Bir çox millətlər dövləti qurmaq, dövlətçiliyi qoruyub saxlamaq bacarığını əldən buraxdılar. Lakin Siz bu vəzifənin öhdəsindən gəldiniz. Bu gün Slovakiya adambaşına düşən ümumi daxili məhsula, sənayenin inkişafına, insan kapitalına və yaşayış standartlarına görə aparıcı ölkələrdən biridir. Ölkəniz uğur qazanmaq, öz milli mənsubiyyətini, ləyaqətini qoruyub saxlamaq və dostluq qurmaq istəyən ölkələr üçün örnək ola bilər. Biz Azərbaycanda Slovakiyanı olduqca sülhsevər, dostluğu və imkanları yaradan, dostluğu dəyərləndirən ölkə kimi görürük. Bütün bunlar aramızdakı münasibəti əks etdirir.

Cənab Prezident, biz bu gün təsisat inkişafı səviyyəsinə yüksəlmiş əməkdaşlığın, faktiki olaraq, çərçivəsini Sizinlə birgə yaratdıq.

Siz ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni qeyd etdiniz. Həqiqətən, biz münasibətləri mümkün qədər ən yüksək səviyyəyə qaldırdıq. Bu gün görüşlər və müzakirələr zamanı, eləcə də tarixi yerləri ziyarət edərkən biz nailiyyətləri bir daha gördük. Çox böyük potensialın şahidi olduq. Əldə olunmuş bu cür əməkdaşlıq daha güclü körpüləri salmaq imkanını yaradacaq, nəinki ikitərəfli gündəlik əsasında işləmək və işi davam etdirmək, o cümlədən qonşular üçün imkanları yaradacaq. Aramızda çox dayanıqlı bağlantılar qurulacaq. Energetika infrastrukturu artıq bizi bir-birimizə bağlayır.

Biz tərəfdaşlığımızın müxtəlif sahələrində fəal çalışırıq və əminəm ki, rəsmi səfərim işbirliyimizə əlavə təkan verəcək. Biz Slovakiyada dostları, mehribanlığı, hörməti görürük və Sizin xalqınıza, hökumətinizə, Slovakiya dövlətinə eyni hisslər bəsləyirik. Mən, cənab Prezident, tərəfdaşlığımıza verdiyiniz bütün töhfələrinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən Sizi Prezident kimi rəsmi səfərə dəvət etmək istərdim. Siz həm Baş nazir, həm Parlament spikeri kimi bizə səfər etmisiniz, lakin Prezidentin rəsmi səfərinin, əlbəttə ki, xüsusi statusu var. Ümid edirəm, Sizi gələn il Azərbaycanda görəcəyəm.

Mən həmçinin Qarabağın yenidən qurulmasına verdiyiniz dəstəyə görə Sizə və Slovakiyadakı dostlarımıza minnətdaram. Hazırda tikilən "ağıllı kənd" Slovakiyanın azad olunmuş ərazilərdə əldə etdiyi uğurun rəmzinə çevriləcək. 851 ev və 10 yaşayış binasından, eləcə də məktəb, uşaq bağçası və tibbi mərkəzdən ibarət kənd nailiyyətlərinizin və əbədi dostluğumuzun təzahürü olacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası bu gün Azərbaycanın birnömrəli hədəfidir. Slovakiya nəinki bu işlərdə, o cümlədən minalardan təmizləmədə bizə yardım edir.

Slovakiyadan aldığımız xüsusi avadanlıq insan həyatını xilas etməyə, sağlamlığı qorumağa imkan yaradır. Əfsuslar ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi bitdikdən sonra 400-dən artıq insan minalara görə öz həyatını itirib, yaxud ciddi yaralanıb. Sizdən aldığımız avadanlıq, həqiqətən, insan həyatını qoruyur.

Qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

## Prezident İlham Əliyevin Slovakiya Milli Şurasının Sədri ilə təkbətək və geniş tərkibdə görüşləri olub





**Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının Sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub.**

AZƏRTAC xəbər verir ki, Slovakiya Milli Şurasının Sədri dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti xatirə kitabını imzaladı.

Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının Sədri Rixard Raşi ilə təkbətək görüşü oldu.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.

Slovakiya Milli Şurasının Sədri dövlətimizin başçısını Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması və tarixi normallaşdırma sənədi ilə əlaqədar təbrik etdi.

İki ölkənin parlamentləri arasında mövcud əlaqələrdən məmnunluğunu bildirən Rixard Raşi Azərbaycana, Qarabağa səfərini xatırladı, işğaldan azad edilmiş Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında Slovakiya şirkətlərinin iştirakını ölkələrimiz arasında dostluğun nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.



Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında keçən il strateji tərəfdaşlıq sənədinin imzalandığını və əlaqələrimizin bu zəmində inkişafını vurğuladı.

Görüşdə Azərbaycanla Slovakiya arasında parlament diplomatiyasının əhəmiyyətinə toxunuldu, beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin parlament təsisatları xətti ilə əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Söhbət zamanı enerji, müdafiə sənayesi, humanitar, idman, birbaşa aviareyslər, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu qeyd edildi.



## Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyanın Baş naziri ilə təkbətək görüşü

**Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirildi. Ötən il Baş nazir Robert Fitsonun ölkəmizə, hazırda isə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük töhfə verəcəyinə əminlik vurğulandı.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilərək, digər istiqamətlər üzrə də əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu bildirildi.

Robert Fitso Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı regional sülhün təmin olunması istiqamətində Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı. Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda Slovakiya şirkətinin layihələrdə iştirakı məmnunluqla qeyd olundu, ölkələrimizin arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



## Səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına rəsmi səfəri dekabrın 9-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Milli Məclisin plenar iclasında çıxışı



Hörmətli xanım Sədr!

Hörmətli deputatlar!

"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin və ümumilikdə büdcə zərfinə daxil olan sənədlərin Milli Məclisdə səmərəli müzakirəsinə, qaldırılan vacib məsələlərə, suallara, dəyərli təklif və tövsiyələrə görə millət vəkillərinə təşəkkürümü bildirmək istərdim.

Eyni zamanda büdcə müzakirələrinin səmərəli təşkilinə görə Milli Məclisin rəhbərliyinə, hörmətli Sahibə xanım şəxsən Sizə öz adımdan və hökumət üzvləri adından minnətdarlığımı çatdırıram.

Hörmətli deputatlar!

2026-2029-cu illəri əhatə edən növbəti ortamüddətli dövr hazırkı inkişaf meyilləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır.

Cari ilin ötən dövrü ərzində ölkə Prezidentinin həyata keçirdiyi xarici səfərlər və yüksəksəviyyəli görüşlər ölkəmizin iqtisadi gündəliyinə yeni dinamika gətirmişdir.

Məhz cari ilin 8 avqustunda Prezident İlham Əliyevin ABŞ-yə tarixi səfəri çərçivəsində imzalanan sənədlər, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın əldə olunması regionda davamlı sülhün, beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının və iqtisadi inkişafın təmin olunmasına xidmət edəcəkdir.

Bu dövrdə əldə olunmuş nailiyyətlər iqtisadi sabitliyin və dayanıqlılığın qorunmasına, yeni investisiyaların cəlbinə və ölkəmizin beynəlxalq sahədə rolunun və mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, 2025-ci il "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilir.

Noyabrın 8-də qürur hissi ilə şahidi olduğumuz Zəfərimizin 5-ci ildönümünə həsr olunmuş möhtəşəm "Hərbi parad" müstəqil dövlətimizin gücünün, ordumuzun qüdrətinin və xalqımızın birlikdə yazdığı şanlı qələbənin təntənəsinə çevrildi.

Hörmətli deputatlar!

Dünya İqtisadi Forumunun 2025-ci il üzrə "Qlobal Risk Hesabatı"nda sadalanan qlobal risklərə baxmayaraq, cari ilin 11 ayında makroiqtisadi göstəricilərimiz dayanıqlıdır. Güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas müsbət göstəricilər kimi qeyd olunmalıdır.

Cari ilin 11 ayında ümumi daxili məhsul 1,6% artmışdır, o cümlədən qeyri-neft-qaz sektorunda 3,2% artım, neft-qaz sektorunda isə 1,8% azalma qeydə alınmışdır. İqtisadi artımın dinamikasında nisbətən zəifləmənin əsası neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir.

Ölkəmizin strateji valyuta ehtiyatları ildən-ilə artır və bu ilin əvvəlindən də əhəmiyyətli dərəcədə - 12,5 milyard dollar artaraq 83,5 milyard dollardır. Bu da manat ifadəsi ilə 142 milyard manatdır ki, 2025-ci ilə gözlənilən ÜDM-in həcmini (130 mlrd.manat) üstələyir. Hazırda valyuta ehtiyatlarımız xarici borcumuzdan 17 dəfə çoxdur.

Bu gün dünyanın iki aparıcı reytinq agentliyi ("Moody's" və "Fitch") ölkəmizin kredit reytinqini yüksəldib. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir.

Əlbəttə ki, bütün bunlar cənab Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu xarici və daxili siyasətin və islahatların təzahürüdür.

Hörmətli deputatlar!

2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının və Böyük Qayıdışa dair I Dövlət Proqramının uğurlu icrası, eləcə də onların növbəti mərhələsi ortamüddətli dövr üçün əsas çağırışlar hesab olunur. Bu gün artıq 2027-2030-cu illəri əhatə edəcək yeni Strategiya və Böyük Qayıdışa dair II Dövlət Proqramı hazırlanır.

2026-2029-cu illərdə dövlət xərclərinin əsas prioritet istiqamətləri aşağıdakılardır:

1. Dayanıqlı iqtisadi artımın dəstəklənməsi;

2. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və məskunlaşdırma tədbirlərinin davam etdirilməsi;

3. Müdafiə və milli təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

4. Sosial müdafiə və sosial təminat istiqamətində tədbirlərin davamlı icrası;

5. Təhsilin və innovativ inkişafın dəstəklənməsi;

6. Səhiyyə sisteminin müasirləşdirilməsi və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

7. Təmiz ətraf mühit və "yaşıl artım"ın təmin olunması.

2026-cı ildə icmal büdcənin gəlirləri təqribən 45 milyard manat, xərcləri isə 48,8 milyard manat proqnoz olunur. İcmal büdcənin kəsirinin ÜDM-ə nisbəti 2,9%-dir.

Makroiqtisadi proqnozlara əsasən 2026-cı ildə qeyri-neft sektoru üzrə ÜDM-in 5,0%-lik real artım tempi proqnozlaşdırılır. Neft-qaz hasilatı istisna olmaqla, ölkə iqtisadiyyatının bütün sahələri artımla proqnoz olunur.

Azərbaycan iqtisadiyyatı son illərdə texnoloji modernləşmə və rəqəmsal transformasiya mərhələsinə daxil olmuşdur. İqtisadi artımın keyfiyyət göstəriciləri yüksəlmiş, iqtisadi infrastrukturun müasirləşdirilməsi, innovasiya və rəqəmsallaşma əsas prioritetə çevrilmişdir.

Ortamüddətli dövrdə iqtisadiyyatımızın aparıcı qüvvəsi qeyri-neft sektoru olacaqdır. Əgər strategiyanın başlanğıc dövründə 2022-ci ildə ÜDM-in həcminin 52 faizini qeyri-neft sektoru təşkil edirdisə (2025- 72%), bu nisbət 2029-cu ildə 80 faizi üstələyəcəkdir.

Hörmətli deputatlar!

Bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Cənab Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda sürətli bərpa-quruculuq işləri görülür.

Ümumilikdə 2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılmışdır (2026 - 3,5 mlrd.manat).

Bu vəsaitlərin böyük hissəsi infrastruktur layihələrinə yönəldilmişdir ki, iqtisadiyyatımız üçün yaradacağı əlavə dəyər orta və uzunmüddətli dövrdə gözlənilir. Bunları nəzərə almalıyıq.

Hökumətin əsas xərc istiqamətlərindən biri də təhlükəsizliyin, hərbi-müdafiə potensialının daha da gücləndirilməsidir.

Növbəti ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin təqribən 21%-ni (8,7 mlrd.manat) təşkil edir.

Bu gün Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır və diqqət göstərilir.

Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik. Və cənab Prezident tərəfindən hökumət qarşısında vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün sənaye klasteri yaradılsın. Bu istiqamətdə artıq müvafiq işlər aparılır.

Hörmətli deputatlar!

Yeni dövrün çağırışlarına uyğun olaraq iqtisadi artımın dayanıqlılığı və rəqabət qabiliyyətinin yüksəldilməsi insan kapitalının keyfiyyətindən bilavasitə asılıdır.

Əhalinin real gəlirlərinin artımı və sosial rifahının yaxşılaşması üçün 2026-cı ilin dövlət büdcəsində cəmi sosialyönlü xərclər 17,1 mlrd. manat nəzərdə tutulur (xərclərin 41%-i).

Növbəti ilin dövlət büdcəsində təhsilin və innovativ inkişafın dəstəklənməsi üçün təhsil və elm xərclərinə 5,2 milyard manatdan çox vəsait ayrılacaqdır (xərclərin 12,6%-i).

Əhalinin sağlamlığı, keyfiyyətli səhiyyə xidmətləri və dərman vasitələri üçün səhiyyə xərclərinə 2 milyard manatdan çox vəsait nəzərdə tutulur (xərclərin 4,9%-i).

İcbari tibbi sığorta çərçivəsində - 2026-cı ildən ürək-damar, 2028-ci ildən mədə-bağırsaq və 2029-cu ildən etibarən tənəffüs sistemi xəstəliklərinin ambulator müalicəsi üçün dərman vasitələrinin sığorta ödənişləri həyata keçiriləcəkdir.

Eyni zamanda uşaq və yeniyetmələrdə onkoloji xəstəliklərin müalicəsi üçün 2027-ci ildən başlayaraq Xidmətlər zərfinə daxil edilməsi məqsədilə layihə hazırlanır.

Hörmətli deputatlar!

2026-cı ilin dövlət büdcəsində investisiyayönümlü dövlət proqramlarının maliyyə təminatı üçün kifayət həcmdə vəsait nəzərdə tutulur.

Hazırda Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradır.

Ən yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat marşrutu kimi mühüm əhəmiyyət kəsb edir.

Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Bu istiqamətdə icra edilən layihələr böyük həcmdə beynəlxalq sərmayələr cəlb edir. Bu, sənayenin inkişafının növbəti istiqamətidir.

Bu gün Azərbaycan bir sıra Mərkəzi Asiya ölkələri ilə birgə sərmayə fondları yaradıb, bir sıra dost ölkələrə Dövlət Neft Fondu və SOCAR vasitəsilə investisiya yatırıb.

Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək, ölkəmiz dividendlər qazanacaq və iqtisadiyyatımız üçün əlavə dəyər yaranacaqdır.

Beləliklə, sadalanan istiqamətlər yeni inkişaf modelini və yeni artım drayverlərini yaradan strateji layihələrdir.

Bütövlükdə cənab Prezidentin son 20 ildə uzaqgörən və düşünülmüş siyasəti Azərbaycana mühüm siyasi-iqtisadi uğurlar qazandırmışdır ki, bu uğurların məntiqi zirvəsi hazırda yaşadığımız şanlı Zəfər tarixidir.

Cənab Prezidentin bugünkü çoxşaxəli siyasəti və ondan irəli gələrək hökumət qarşısında qoyacağı hədəflər isə qarşıdakı illərdə milli iqtisadiyyatımızın dinamik inkişafını təmin edəcəkdir.

Hörmətli xanım Sədr!

Hörmətli deputatlar!

Büdcə müzakirələri zamanı qaldırılan məsələlər hökumət və aidiyyəti qurumlar tərəfindən daim diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində hər il olduğu kimi, gələn il də büdcə imkanları çərçivəsində mümkün olan bütün zəruri tədbirlər görüləcəkdir.

Çıxışımın sonunda bir daha aparılan müzakirələrə görə hörmətli xanım Sədr Sizə və deputatlara minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə çox sağ olun!

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 10 iyul tarixli 287 nömrəli və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1-25.1.6-cı maddələrində nəzərdə tutulmuş məhsulların qeydiyyatının aparılması, qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi Qaydalarının və qeydiyyatın qüvvədə olma müddəti"nin və "Azərbaycan Respublikasının ərazisində yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının siyahısı"nın təsdiq edilməsi barədə" 2024-cü il 13 mart tarixli 155 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 375** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1169-VIQD nömrəli Qanununun tətbiqi və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 iyun tarixli 114 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il10 iyul tarixli 287 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1623 (Cild I); 2024, № 3, maddə 331, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və birinci hissədə "fəallığa malik qida əlavələrinin" sözləri "aktiv qida məhsullarının" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 3, maddə 332) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1-25.1.6-cı maddələrində nəzərdə tutulmuş məhsulların qeydiyyatının aparılması, qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi Qaydaları və qeydiyyatın qüvvədə olma müddəti"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə üzrə:

2.1.1. aşağıdakı məzmunda 3.2-1-ci və 3.2-2-ci bəndlər əlavə edilsin:

"3.2-1. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və qeydiyyatın aparılmasından imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 3 (üç) iş günündən gec olmayaraq Agentlik onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman qeydiyyatın müddət axımı dayandırılır və dayandırılmış müddət bu müddətə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları 10 (on) iş günü müddətində aradan qaldırmadıqda Agentlik ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edir.

3.2-2. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra məhsulun qeydiyyata alınması üçün təkrar Agentliyə müraciət edə bilər.";

2.1.2. 3.5-ci bəndə "imtina" sözündən sonra "bu Qaydaların 8.1-1-ci bəndi nəzərə alınmaqla" sözləri əlavə edilsin;

2.1.3. 3.14.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.14.5-ci yarımbənd əlavə edilsin:

"3.14.5. bioloji aktiv qida məhsullarına münasibətdə, həmçininbu Qaydaların 8.1-1-ci bəndinə uyğun olaraq məhsula dair ekspertiza xidmətlərinin göstərilməsi barədə müqavilə bağlanmadıqda və ya məhsul alınmış ekspertiza rəyinin nəticəsinə əsasən dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olduqda.";

2.2. 8-ci hissə üzrə:

2.2.1. 8.1-ci bənddə "olmaması barədə son 1 (bir) il ərzində verilən ekspertiza rəyi ilə təmin edilməlidir" sözləri "olub-olmaması barədə ekspertiza rəyinin alınması üçün Agentlik tərəfindən bu Qaydaların 8.6-cı bəndində nəzərdə tutulan sənədlər və məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə (bundan sonra - Nazirlik) ötürülür" sözləri ilə əvəz edilsin;

2.2.2. aşağıdakı məzmunda 8.1-1-ci bənd əlavə edilsin:

"8.1-1. Nazirliyin tabeliyində olan "Analitik Ekspertiza Mərkəzi" (bundan sonra - Qurum) ilə istehsalçı və ya onun müvəkkil etdiyi şəxs arasında ekspertiza xidmətlərinin göstərilməsi barədə müqavilə bağlanılması, müvafiq ödənişin həyata keçirilməsi (bu barədə qəbz təqdim edilməklə), habelə nümunələrin təqdim edilməsi barədə Agentliyə məlumat verildikdən sonra məhsulun dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olub-olmamasına dair ekspertiza 15 (on beş) iş günü müddətində həyata keçirilir və ekspertiza rəyi Nazirlik tərəfindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Agentliyə ötürülür. Ekspertiza rəyinin verilməsi üçün nəzərdə tutulan müddət qeydiyyatın aparılması ilə bağlı müddətə daxil edilmir.";

2.2.3. 8.2-ci bənddə "Bioloji" sözü "Bu Qaydaların 8.1-1-ci bəndinə uyğun olaraq Qurumdan alınmış ekspertiza rəyinə əsasən məhsul dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olmadıqda bioloji" sözləri ilə əvəz edilsin;

2.2.4. 8.4.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.4.3. məhsulun qablaşdırılmasının üzərində və onların istifadə təlimatlarında (içlik vərəqlərində) əmtəə nişanı adının yazıldığı hər yerdə əmtəə nişanı adının altında onunla eyni ölçüdə və şriftdə olan ağ fonda qara rəngli aydın, seçilən, qalın və böyük hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmuş "DƏRMAN VASİTƏSİ DEYİLDİR!" sözləri yazılmalı, həmçinin "Uşaqların əli çatmayan yerdə saxlayın" məlumatı əks etdirilməli və onların bioloji aktiv qida məhsullarına aid olması göstərilməlidir;";

2.2.5. 8.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.5. Qeydiyyatla bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd olunmalıdır:

8.5.1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar;

8.5.2. məhsulun adı, əmtəə nişanı və partiya nömrəsi;

8.5.3. məhsulun istehsalçısının adı və istehsal edildiyi obyektin ünvanı;

8.5.4. məhsulun buraxılış, qablaşdırılma forması və sayı;

8.5.5. məhsulun qablaşdırmada olan dozası;

8.5.6. məhsulun saxlanma şəraiti və yararlılıq müddəti;

8.5.7. məhsulun mənşə ölkəsi;

8.5.8. ərizəçinin bank rekvizitləri.";

2.2.6. 8.6.1-ci, 8.6.2-ci, 8.6.5-ci və 8.6.6-cı yarımbəndlər ləğv edilsin;

2.2.7. 8.6.3-cü yarımbənddən "mənşə və uyğunluq sertifikatları, həmçinin" və ", səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd" sözləri çıxarılsın;

2.2.8. 8.6.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.6.7. 2-14 yaşında uşaq, hamilə və ya laktasiya dövründəki qadınların istifadəsi üçün tövsiyə edildikdə, məhsula dair müvafiq tədqiqatların protokolları;";

2.2.9. 8.6.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.6.8-8.6.13-cü yarımbəndlər əlavə edilsin:

"8.6.8. təqdim edilmiş məhsulun istehsalı barədə müvafiq sənədlərin (keyfiyyət parametrləri spesifikasiya sənədində olan parametrlərlə eynilik təşkil edən məhsul seriyasına dair analiz sertifikatı, məhsulun tərkibi üzrə tədqiqat (sınaq) protokolu, tədqiqatın (sınağın) aparılması üçün validasiya edilmiş analiz üsulları, məhsulun keyfiyyətinə dair fiziki-kimyəvi və mikrobioloji keyfiyyət parametrlərinin əks olunduğu spesifikasiya sənədi, məhsulun yararlılıq müddətini təsdiq edən sınaqlara dair məlumat, resepturalar, istehsalçı tərəfindən təqdim edilmiş məhsulun istehsal prosesinin ardıcıllığını əks etdirən sənədlər (texnoloji proses), eləcə də istehsalçının bioloji aktiv qida məhsullarının istehsalına icazəsi barədə sənədlərin surətləri və məhsulun tərkibindəki təsiredici maddələrə dair müqayisə standartları;

8.6.9. istehsalçının məhsulun tərkibində genetik modifikasiya olunmuş məhsulların və nanomaterialların, hormonların, pestisidlərin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin və Beynəlxalq Anti-Dopinq Agentliyinin qüvvədə olan siyahısı ilə müəyyən edilmiş dopinq maddələrinin olmaması haqqında təsdiqedici sənədi;

8.6.10. məhsulun istehlakçı üçün nəzərdə tutulmuş istifadə təlimatı və onun Azərbaycan dilinə tərcüməsi;

8.6.11. ekspertizaya təqdim olunmuş məhsulların etiketinin və qablaşdırılmasının ərizəçi və ya istehsalçı tərəfindən təsdiq edilmiş maketləri, həmin maketlər xarici dildə olduqda Qanunun 17.4-cü maddəsinin tələblərinə əsasən onların Azərbaycan dilində tərcüməsi;

8.6.12. məhsulun tərkibindəki təsiredici maddələrin beynəlxalq adı və kəmiyyət tərkibi, köməkçi maddələrin və digər inqrediyentlərin isə beynəlxalq adı göstərilməklə siyahısı, həmçinin kapsul və tablet örtüklərinin hazırlanmasında istifadə olunan maddələrin siyahısı;

8.6.13. istehsalçı tərəfindən məhsulun hazırlanmasında istifadə olunan bitkilərin binar nomenklaturaya əsasən elmi adları, onlardan alınan xammallar (istifadə olunan bitki hissələri), həmçinin məhsula daxil olma formalarının (toz, qatı, quru və maye ekstratları, dəmləmə, bişirmə, tinktura və s.) barədə məlumatlar.";

2.3. 10.7.7-ci yarımbəndə "tərkibi" sözündən sonra "köməkçi maddələrin və digər inqrediyentlərin isə beynəlxalq adı" sözləri əlavə edilsin;

2.4. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

**"11. Keçid müddəa**

Nazirliklə Agentliyin informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsi real vaxt rejimində həyata keçirilənədək, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.".

3. Bu Qərar 2026-cı il iyunun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Milli Məclisin iclasında

# Büdcə zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda qəbul olunub

**Dekabrın 9-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda ilk olaraq "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, 2026-cı ilin dövlət büdcəsinin gəlirləri 38,6 milyard, xərcləri 41,7 milyard, kəsiri 3,1 milyard manat, icmal büdcənin gəlirləri 44,9 milyard, xərcləri 48,8 milyard, kəsiri isə 3,9 milyard manat təşkil etməklə üçüncü oxunuşda da dəyişməz olaraq qalır.

Komitə sədri nəzərə çatdırıb ki, sənədin müzakirəsi zamanı deputatlar tərəfindən səsləndirilən bəzi təkliflər, həmçinin müzakirələr ərəfəsində bir neçə büdcə təşkilatının fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda müvafiq dəyişikliklər əlavə maliyyə təminatı tələb edir. O qeyd edib ki, yaranmış əlavə maliyyə ehtiyacının qarşılanması üçün "2026-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsində dəyişikliklərin edilməsi təklif olunur. Bu dəyişikliklər növbəti ilin dövlət büdcəsinin və icmal büdcənin gəlir və xərcləri çərçivəsində nəzərdə tutulur və büdcənin ümumi parametrləri dəyişməz olaraq qalır.

Azər Əmiraslanov növbəti ilin büdcə layihəsinə edilən dəyişikliklər barədə məlumatında bildirib ki, müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərcləri üzrə bəzi maddələrin əlavə olaraq 47,8 milyon manat artırılması təklif olunur. Habelə ərzaq və qida təhlükəsizliyi çərçivəsində heyvanlar arasında yoluxucu xəstəliklər və epizotiya əleyhinə peyvəndləmə işləri üçün əlavə 3 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulur. Həmçinin bəzi dövlət orqanlarının fəaliyyətinin təşkili və onların maddi-texniki təminatının daha da yaxşılaşdırılması ilə bağlı 1,2 milyon manat vəsaitə ehtiyac yaranıb. O, ümumilikdə 52 milyon manat təşkil edən bu xərclərin dövlət büdcəsinin müvafiq ehtiyatları hesabına təmin olunacağını söyləyib. Bununla yanaşı, bəzi təşkilatların təklifləri əsasında onların xərclərinin optimallaşdırılması səbəbindən iqtisadi təsnifata uyğun olaraq 13,2 milyon manat məbləğində maddələrarası yerdəyişmələrin aparılmasına ehtiyac yarandığını qeyd edib.

Azər Əmiraslanov bildirib ki, postmüharibə dövründə taleyüklü məsələlərin büdcə zərfində nəzərə alınması onun unikallığını ifadə edir. Böyük qayıdış proqramının icrası, ölkəmizin təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-tranzit infrastrukturunun dəstəklənməsi və bütün bunların sosial müdafiə tədbirləri ilə müşayiət edilməsi yeni büdcə sənədinin əsas xüsusiyyətlərindəndir. Büdcə zərfi həm də maliyyə təhlükəsizliyinin gücləndirilməsini, o cümlədən valyuta ehtiyatlarımızın qorunmasını hədəfləyir. O, Azərbaycan Prezidentinin səsləndirdiyi "Dövlət Neft Fondu bizim iqtisadi suverenliyimizin əsas dayağıdır" fikrinin önəmini vurğulayaraq, fondun aktivlərinin qorunmasının, dövlət büdcəsinin əsasən qeyri-neft gəlirləri hesabına formalaşdırılmasının, fiskal risklərin azaldılmasının ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyinin başlıca şərti olduğunu qeyd edib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova nəzərə çatdırıb ki, birinci və ikinci oxunuşlar zamanı 68 deputat 2026-ci ilin dövlət büdcəsi haqqında öz fikirlərini bildirib və bütün çıxışlar, o cümlədən deputatların yazılı şəkildə təqdim etdikləri 21 çıxış aidiyyəti üzrə Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə göndərilib.

Bundan sonra "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.




Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəliyin növbəti iki məsələsini - "Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2026-ci il büdcəsi haqqında" qanun layihələrini üçüncü oxunuşda təqdim edib. O, 2026-cı il üçün Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələrinin birinci və ikinci oxunuşlarda müzakirələri zamanı ətraflı məlumat verildiyini və hər iki sənədin dəstəkləndiyini qeyd edib.

Komitə sədri DSMF-nin 2026-cı il üçün gəlirlərinin cari ildəkindən 9,3 faiz, xərclərinin isə 10,5 faiz çox nəzərdə tutulduğunu bildirib. O, DSMF-nin büdcəsi haqqında qanun layihəsinin qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiq olduğunu və növbəti ildə şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alanların, təqaüdçülərin, ümumilikdə ölkə vətəndaşlarının sosial rifahının daha da yaxşılaşdırılması üçün etibarlı təminat yaradacağını söyləyib.

İşsizlikdən Sığorta Fondunun növbəti il üçün büdcə layihəsinə dair fikirlərini açıqlayan Musa Quliyev nəzərə çatdırıb ki, sənəd 2026-cı ildə sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiyası, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, haqqı ödənilən ictimai işlərin təşkili və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşməsi üçün optimal maliyyə əsasları yarada biləcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin hər iki qanun layihəsi ilə bağlı müsbət rəyi açıqlandıqdan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Layihəyə əsasən, əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat məbləğində müəyyən edilir. Bu, 2026-cı il üçün proqnozlaşdırılan 4,8 faiz inflyasiya fonunda ölkə üzrə yaşayış minimumunun 5,3 faiz artımı deməkdir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) təqdim olunub. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2026-cı il üçün ehtiyac meyarının həddinin 300 manat məbləğində müəyyən edildiyini, bunun cari ildəki ehtiyac meyarından 5,3 faiz çox olduğunu bildirib.

## A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aida Əli qızı Hüseyn vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin məsələ barədə müsbət rəyi səsləndirildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (üçüncü oxunuş) baxılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov ikinci oxunuşdan sonra layihədə müəyyən dəyişikliklərin edildiyini söyləyib. O, təklif olunan düzəlişlərin Vergi Məcəlləsinə, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" qanunlara, həmçinin qanunun qüvvəyə minməsinə dair 19-cu maddəsinə şamil olunduğunu və əsasən dəqiqləşdirici xarakter daşıdığını deyib. Qeyd edilib ki, bu düzəlişlər Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən birgə hazırlanıb və qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb.

Komitə sədri diqqətə çatdırıb ki, Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, nağdsız əməliyyatların stimullaşdırılması məqsədilə pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərdən formalaşan dövriyyəyə 0,5 əmsal tətbiq edilir və bununla da həmin dövriyyə ƏDV qeydiyyatı məqsədləri üçün iki dəfə artırılmış məbləğdə nəzərə alınır. Təklif olunan düzəlişlə bu müddəanın yalnız ƏDV qeydiyyatına daxilolma deyil, həm də ƏDV qeydiyyatından çıxma zamanı nəzərə alınması dəqiqləşdirilir.

Habelə bildirilib ki, qanun layihəsinin 3-cü oxunuşa qədərki mətnində 2026-cı il yanvarın 1-dən tütündən hazırlanan siqaretlər üzrə aksiz dərəcələrinin tənzimlənməsi təsbit edilib. Lakin aidiyyəti qurumlar tərəfindən aparılmış müzakirələr nəticəsində tütündən hazırlanan siqaretə alternativ olan digər tütün məmulatları üzrə də aksiz vergilərinin artırılmasına dair təkliflər hazırlanıb.

Bununla yanaşı, qeyd olunub ki, "İşğaldan azad edilmiş ərazinin rezidenti olma" statusu artıq Vergi Məcəlləsi ilə müəyyən edildiyindən, "Sosial sığorta haqqında" qanuna da uyğunlaşdırıcı dəyişikliyin edilməsi təklif olunur. Habelə "Tibbi sığorta haqqında" qanuna təklif olunan düzəlişdə qeyri-formal məşğulluğun təsir dairəsinə düşən sığortalıların müəyyən edilməsi qaydasının müvafiq səlahiyyətli orqan tərəfindən təsdiq edilməsi zəruri hesab olunur.

Sonra məsələ ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu, Əmək və sosial siyasət, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr və Ailə, qadın və uşaq məsələləri komitələrinin müsbət rəyləri diqqətə çatdırılıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova büdcə zərfinə daxil olan bütün qanun layihələrinin üçüncü oxunuşda qəbul edildiyini bildirib və çıxış üçün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova söz verib.

*(Baş nazir Əli Əsədovun çıxışı qəzetin bugünkü nömrəsində dərc olunub).*

Spiker Sahibə Qafarova Baş nazir Əli Əsədova təşəkkür edib, hökumət üzvlərinə dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrasında və fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov gündəliyin növbəti iki məsələsinin Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihələri olduğunu bildirib. O, hər iki sənədin büdcə zərfinin müzakirələri zamanı nəzərdən keçirildiyini, bu gün isə bu məsələlərə münasibət bildiriləcəyini söyləyib.

Milli Məclisin hər iki qərar layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Gündəliyin doqquzuncu məsələsini təqdim edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, məsələ Aida Əli qızı Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi ilə bağlıdır. Komitə sədri deyib ki, Aida Hüseyn yüksək peşəkarlığa və uzunmüddətli iş təcrübəsinə malikdir və öz gələcək fəaliyyəti ilə də Naxçıvanda ədalət mühakiməsinin həyata keçirilməsinə mühüm töhfə verəcək, həmçinin hüquq sisteminin inkişafına və məhkəmə fəaliyyətinin daha səmərəli təşkilinə ciddi dəstək olacaq.

Təqdim olunan məsələ üzrə Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti məsələnin "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" konstitusiya qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanunu layihəsinin (II səsvermə) olduğunu deyib. O bildirib ki, konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsverməyə qoyulur. Təqdim olunan konstitusiya qanununa müvafiq dəyişiklik altı ay əvvəl birinci səsvermədə qəbul edilmişdir və indi də ikinci səsverməyə çıxarılır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənəddə nəzərdə tutulan dəyişikliyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatının vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda müəyyən ediləcək.

Konstitusiya qanununun layihəsi səsə qoyularaq ikinci səsvermədə qəbul edilib.

Növbəti məsələ - "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənəd bundan əvvəl qəbul edilən konstitusiya qanununa uyğunlaşdırma xarakterlidir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Azərbaycan Respublikasının daxili qoşunları haqqında"Azərbaycan Respublikası qanununun layihəsi, o cümlədən "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan XİN-dən Aİ-Ermənistan Strateji Gündəliyinə kəskin etiraz

2025-ci il dekabrın 2-də Avropa İttifaqı (Aİ) və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə postmünaqişə dövründə reallıqları təhrif edən və bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə zidd olan bir sıra məsələlərin prioritetləşdirilməsi ciddi narahatlıq doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) həmin sənədə dair şərhində yer alıb.

Azərbaycan XİN-in şərhində həmçinin bildirilib: "Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir edir.

Sənədin giriş hissəsində və bir sıra digər bölmələrində Azərbaycan tərəfindən təqdim edilmiş reinteqrasiya planından imtina etdikdən sonra ölkəmizdən könüllü şəkildə Ermənistana miqrasiya etmiş erməni sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsinin işlədilməsi və bu məsələnin Aİ və Ermənistan arasında tərəfdaşlıq prioriteti kimi müəyyən edilməsi, eləcə də bu kateqoriya insanların "qaçqın" statusunda qeyd edilməsi Azərbaycana qarşı qərəzin açıq-aydın nümunəsidir. Həmçinin sənədin regionda normallaşma proseslərinə Aİ-nin mümkün töhfələri bölməsində Beynəlxalq Ədalət Məhkəməsinin bütün müvafiq qərarlarının tam, dərhal və effektiv həyata keçirilməsinin dəstəklənməsi, birmənalı olaraq, Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülmüş məlum iddiaları nəzərdə tutur.

Azərbaycanla Ermənistana birbaşa aid olan və sırf ikitərəfli xarakter daşıyan bir məsələnin üçüncü tərəflə gündəmə gətirilməsi tamamilə məntiqsiz olmaqla yanaşı, belə bir yanaşma Azərbaycanın da Ermənistan əleyhinə öz legitim məhkəmə iddialarının mövcudluğunu nəzərə almır.

Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişində bu iddiaların aradan qaldırılmasına dair müddəa nəzərə alındıqda, Aİ-Ermənistan sənədində həmin məsələyə toxunulması sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir və Ermənistan tərəfinin bəyan etdiyi niyyətlə bağlı ciddi suallar yaradır.

İnsanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd edilməsi və onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyən edilməsi reallıqların ciddi şəkildə təhrif edilməsidir və qəbuledilməzdir.

Aİ-Ermənistan sənədində Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaların əks olunmasına baxmayaraq, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməməsi ciddi narahatlıq doğurur. Bu hal Ermənistanın Vaşinqtonda Baş nazirləri tərəfindən imzalanmış TRIPP sazişi çərçivəsində öhdəlikləri icra etmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaradır.

Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir.

Prioritetlər sırasında qeyd edilənlərlə yanaşı, hərbi və müdafiə məsələlərinin vurğulanması Ermənistanın hərbiləşməsinə xidmət edir.

Yuxarıda qeyd olunan məsələlər avqustun 8-dən etibarən postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərini yenidən gündəmə gətirir və Ermənistanın niyyətləri barədə ciddi şübhələr yaradır. Ermənistan və Aİ-nin mövcud reallıqları əks etdirməyən bu zərərli müddəaların aradan qaldırılması istiqamətində konkret addımlar atacağını gözləyirik. Öz növbəmizdə vəziyyəti diqqətlə izləməyə davam edəcək və zəruri nəticələr çıxaracağıq".

# Azərbaycan Beynəlxalq Doha Forumunda təmsil olunub

**Dekabrın 6-8-də Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev Qətər dövlətində səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, F.Rzayev Qətər dövlətinin dəstəyi ilə keçirilən 23-cü Beynəlxalq Doha Forumunda iştirak edib.

Forum çərçivəsində F.Rzayev iqlim diplomatiyasına həsr olunmuş panel sessiyasında çıxış edib. Nazir müavini ölkəmizin "yaşıl enerji"yə keçid və alternativ enerji mənbələrindən istifadə sahəsindəki siyasəti, habelə COP29 çərçivəsində Azərbaycanın sədrliyi tərəfindən görülmüş işlər və nailiyyətlər, bu kontekstdə cari ilin noyabrında Braziliyada keçirilmiş COP30 tədbirinə ölkəmizin töhfələri, COP "troyka" beynəlxalq iqlim diplomatiyası çərçivəsində davam edən fəaliyyəti barədə danışıb.

Eyni zamanda səfər çərçivəsində F.Rzayev Qətərin Lusail universitetinin rəhbərliyi və professor-müəllim heyəti, eyni zamanda Beynəlxalq Siyasi Araşdırmalar Mərkəzinin rəhbərliyi ilə görüşlər keçirib.

Görüşlər zamanı F.Rzayev Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra yürütdüyü fəal xarici siyasət kursu, ikitərəfli əlaqələri və beynəlxalq təşkilatlar çərçivəsindəki təşəbbüsləri, eyni zamanda ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində həyata keçirilən fəaliyyət, eləcə də Azərbaycan və Qətər arasında həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlıq barədə danışıb.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki "Nafta" Elmi İstehsalat Birliyinin, "Aşqar" Elmi İstehsalat Birliyinin və "Kompozit" Elmi İstehsalat Birliyinin ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 372** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamının 1.1.5-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki "Nafta" Elmi İstehsalat Birliyi, "Aşqar" Elmi İstehsalat Birliyi və "Kompozit" Elmi İstehsalat Birliyi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" Nafta" Elmi İstehsalat Birliyinin, "Aşqar" Elmi İstehsalat Birliyinin və "Kompozit" Elmi İstehsalat Birliyinin ləğv edilməsi ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq zəruri tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn digər məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası"nın təsdiq edilməsi və "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 373** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 2 iyun tarixli 402 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165 (Cild I); 2025, № 9, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambuladan "1.3-cü," və ", 1.13-cü" sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "Fitosanitar sertifikatının nümunəvi forması"," və "Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin Siyahısı"," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 374** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1279 (Cild I); 2024, № 12 (I kitab), maddə 1323) 1-ci hissəsinin "Şuranın üzvləri:" bölməsinin ikinci, yeddinci və on dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"Həsənov Ceyhun Rafiq oğlu - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Aparatının Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsi müdirinin müavini - iqtisadi statistika sektorunun müdiri

Hüseynzadə Samir Allahverən oğlu - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Baş katibinin müavini - Hüquq və sosial tərəfdaşlıq şöbəsinin müdiri

Abdullayev Cəlal Rövşən oğlu - Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin hüquq məsələləri üzrə meneceri".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 376** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planının 8.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755 (Cild I); 2024, № 4, maddə 437, № 12 (II kitab) maddə 1444) aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Dövlət orqanlarında (mərkəzi icra hakimiyyəti orqanlarında, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərində, mərkəzi icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanlarda) kadr qurumları həmin orqanların mövcud ştat sayı dairəsində işçilərinin sayına mütənasib olaraq aşağıdakı cədvələ uyğun olaraq təşkil edilir:

| *Sıra №-si* | *Vəzifələr nomenklaturuası üzrə kadr xidməti göstərilən işçi sayı* | *Kadr məsələləri üzrə ştat sayı və ya müvafiq struktur bölmə* |
|---|---|---|
| *1.* | *işçi sayı 100 nəfərədək olduqda* | *kadr məsələləri üzrə maksimum 2 ştat vahidi* |
| *2.* | *işçi sayı 101 nəfərdən 200 nəfərədək olduqda* | *kadr məsələləri üzrə 2 ştat vahidi və ya sektor* |
| *3.* | *işçi sayı 200 nəfərdən çox olduqda* | *sektor və ya şöbə* |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Xüsusi icra məmurunun standart haqqının və əlavə icra haqqının hesablanması meyarları və hədlərinin, habelə standart haqq üzrə avansın məbləği"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 378** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.1.2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xüsusi icra məmurunun standart haqqının hesablanması meyarları və hədləri" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Xüsusi icra məmurunun standart haqq üzrə avansın məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

3. "Xüsusi icra məmurunun əlavə icra haqqının hesablanması meyarları və hədləri" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Heydər Əliyev zirvəsi




Dekabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və partiyanın Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Heydər Əliyev zirvəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

"Bakı KOB Evi"ndə keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir: "Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müdrik siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Əldə olunan uğurların zirvəsində işğal altındakı torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüz və suverenliyimizin bərpası dayanır".

Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva ölkəmizin inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz rolundan danışıb. Z.Musayeva bildirib ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı kimi adını tariximizə əbədi həkk etdirib: "Bu gün məhz Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, yeni zirvələr fəth edir. Uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan Vətən müharibəsində şanlı Qələbə qazandı, lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu".

Çıxış edən Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev xalqımızın tarixində silinməz iz qoymuş, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya siyasətində öz müdrikliyi, uzaqgörənliyi və qətiyyəti ilə seçilən dahi şəxsiyyətdir. O.Məmmədov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də Azərbaycan iqtisadiyyatını yeni fəlsəfi əsaslarla qurmasıdır: "Ümummilli Lider Heydər Əliyevin iqtisadi strategiyasında sahibkar və sahibkarlıq fəaliyyəti xüsusi rol oynayırdı. Ulu Öndər sahibkarlığı milli iqtisadi gücün əsas dayağı kimi qiymətləndirirdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə ilk dəfə sahibkarlığın hüquqi bazası formalaşdı, özəl mülkiyyətin toxunulmazlığı, azad rəqabət, əlverişli investisiya mühiti, KOB-ların dəstəklənməsi kimi prinsiplər dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildi".

O.Məmmədov qeyd edib ki, bu gün Azərbaycanda sahibkarlığın inkişafı üçün yaradılan bütün mexanizmlər - investisiyaların təşviqi, güzəştli kredit mexanizmi, rəqəmsal xidmətlər və yeni iqtisadi yanaşmalar əsasında biznes mühitinin yaxşılaşdırılması məhz Ulu Öndərin əsasını qoyduğu təməl üzərində Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir".

YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə isə mövzu ilə bağlı məruzəçi qismində çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini deyib: "Azərbaycan xalqı çox xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi".

Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. "Mən "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun reallıqda təsdiqidir. 44 gündə Azərbaycan bütün dünyaya göstərdi ki, qalib ölkədir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını, dövlətini elə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi dövlətini, xalqını sevən Lideri bəxş etdi. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycan bütün sahələrdə inkişaf edir. Ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi üçün görülən işlər Heydər Əliyev siyasətinin təntənəsidir", - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

## *Kosmik diplomatiya yeni mərhələdə:*
# ICESCO rəsmisi Azərbaycanın artan regional rolunu dəyərləndirir

### Azərbaycan kommersiya peyk xidmətlərini genişləndirməli, elmi-tədqiqat və texniki hazırlıq sahəsinə sərmayə qoymalı, eyni zamanda "New-Space" startap ekosistemini formalaşdırmalıdır

*Azərbaycan son illərdə kosmik sənayenin inkişafında regional liderliyini möhkəmləndirərkən beynəlxalq tərəfdaşlarla, o cümlədən İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ilə əməkdaşlıq yeni məzmun qazanıb. Tərəflər arasında elmi tədqiqatlar, peyk məlumatlarının istifadəsi və innovativ texnologiyaların tətbiqi üzrə birgə layihələr Azərbaycanın kosmik potensialını daha da genişləndirir. Bu əməkdaşlıq həm iqlim monitorinqi, həm də rəqəmsal transformasiya sahəsində ölkəyə əlavə üstünlüklər təqdim edir.*

*Bu fikirləri AZƏRTAC-a müsahibəsində İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) müşaviri doktor Məhəmməd Şərif səsləndirib.*




*Məhəmməd Şərif Azərbaycanın son illərdə kosmik sənayedə regional liderə çevrilməsi, "Azərkosmos"un beynəlxalq əməkdaşlıq potensialı, peyk texnologiyalarının iqtisadi önəmi, COP29-COP30 kontekstində kosmik məlumatların rolu və gələcək inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.*

*- Azərbaycan son illərdə kosmik sənayenin inkişafında hansı regional və beynəlxalq rol oynamağa başlayıb və bu, Cənubi Qafqazda texnoloji əməkdaşlığa necə təsir edir?*

-Azərbaycan kosmik xidmətlər üzrə yüksələn regional mərkəzə çevrilir. Rabitə və Yer müşahidəsi imkanları sayəsində qonşu ölkələrə xidmət göstərir, regionda məlumat mübadiləsini gücləndirir. İnfrastrukturun və peyk məlumatı xidmətlərinin genişlənməsi Cənubi Qafqazda texnoloji əməkdaşlığı möhkəmləndirir və Azərbaycanı regional-beynəlxalq kosmik aktorlar arasında körpüyə çevirir.

*- "Azərkosmos"un beynəlxalq kosmik agentliklər və kommersiya qurumları ilə əməkdaşlıq üçün ən perspektivli istiqamətləri hansılardır?*

- "Azərkosmos" peyk rabitəsi, Yer müşahidəsi məlumat xidmətləri, yerüstü stansiyaların idarə olunması və potensialın artırılması proqramlarında geniş əməkdaşlıq imkanlarına malikdir. Qlobal operatorlar, tədqiqat mərkəzləri və "New-Space" şirkətləri ilə tərəfdaşlıqlar həm xidmətlərin coğrafiyasını genişləndirə, həm də texnologiya transferini sürətləndirə bilər.

*- Peyk rabitəsi, müşahidə və Yer monitorinqi texnologiyalarının Azərbaycan üçün iqtisadi və strateji əhəmiyyətini necə qiymətləndirirsiniz?*

- Peyk rabitəsi və Yer müşahidəsi sistemləri Azərbaycan üçün strateji aktivdir. Bu texnologiyalar iqtisadi şaxələndirməyə, rəqəmsal bağlantının genişlənməsinə, dəqiq kənd təsərrüfatına, ekoloji monitorinqə və milli təhlükəsizliyə xidmət edir. Eyni zamanda qərarverməni yaxşılaşdırır, dayanıqlılığı artırır və yeni sənaye-kommersiya imkanlarının açılmasına səbəb olur.

*- Azərbaycanın COP29-a evsahibliyi kontekstində kosmik texnologiyaların iqlim monitorinqi və dayanıqlı inkişaf hədəflərinə töhfəsini necə qiymətləndirirsiniz?*

- Kosmik texnologiyalar Azərbaycanın iqlim gündəliyini güclü şəkildə dəstəkləyə bilər. Emissiyaların monitorinqi, torpaq örtüyündə dəyişikliklərin təhlili ekoloji risklərin qiymətləndirilməsi üçün dəqiq məlumatlar təqdim edir. Yer müşahidəsi məlumatı iqlim hesabatlığını gücləndirir, erkən xəbərdarlıq sistemlərini inkişaf etdirir və COP29-COP30 dövründə Azərbaycanın iqlim diplomatiyasını daha təsirli edir.

*- Azərbaycanın beynəlxalq kosmik ekosistemə daha dərin inteqrasiyası üçün hansı istiqamətlər prioritet olmalıdır: elmi tədqiqatlar, "New-Space" startapları, yoxsa texnologiya transferi?*

- Məncə, ən effektiv yol balanslaşdırılmış yanaşmadır. Azərbaycan kommersiya peyk xidmətlərini genişləndirməli, elmi-tədqiqat və texniki hazırlıq sahəsinə sərmayə qoymalı, eyni zamanda "New-Space" startap ekosistemini formalaşdırmalıdır. Bu üç istiqamətin birlikdə inkişafı ölkənin qlobal kosmik cəmiyyətə inteqrasiyasını gücləndirəcək və uzunmüddətli milli potensialını artıracaq.

## Azərbaycanın özü qədər əbədi

# Müasir Azərbaycanın xilaskarı və qurucusu

**Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümüdür. Heydər Əliyev Azərbaycan dövlətinin müstəqillik amalını və milli mübarizəsini gerçəyə çevirmiş və adını milli dövlət yaddaşına əbədi yazdırmış Xilaskardır. Ulu Öndər dövlətə, dövlətçiliyə, canı qədər sevdiyi Azərbaycana hansı dərəcədə bağlı olduğunu əsrlərə sığmayacaq möhtəşəm fəaliyyəti ilə təsdiqləmişdir.**

Ulu Öndər enerjili, güclü iradəli və qətiyyətli kadr kimi gənclik illərindən Azərbaycan xalqının və dövlətinin gələcəyi naminə özünəməxsus fəaliyyəti ilə cəmiyyətə töhfə verməyə başlamışdır. Dövlət təhlükəsizlik orqanlarında məsul vəzifədə çalışdığı dövrdə onun üçün ali məramlardan biri olan millilik, düzgünlük və ədalətlilik iş prinsipində başlıca meyar idi. Qorxmazlığı, cəsurluğu və qətiyyəti sovet nomenklaturasının bürokratik aparatı tərəfindən qısqanclıqla qarşılanır və çox vaxt təqiblərlə üzləşirdi.

Əsasən ermənilərin və qeyri-millətlərin yuva saldığı və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirdiyi Dövlət Təhlükəsizlik Komitəsindəki anti-Azərbaycan qüvvələrinə qarşı mübarizə aparmaq o dövrdə olduqca riskli bir iş idi. Ancaq Heydər Əliyev həyatını təhlükəyə ataraq sanki ölümünü göz önünə alırdı, mübarizliyi ilə daha da irəli gedirdi. Bu haqda danışarkən deyirdi ki, ağır bir mühitdə işləmək çox çətin idi, "Nə qədər əziyyət çəkdim ki, Azərbaycana xəyanət etmiş insanlardan bu orqanı xilas edək, yeni adamlar cəlb edək, sağlamlaşma işi aparaq. O qədər çətin oldu ki, mənə qarşı fitnələr etdilər. Bir müddət həmin vəzifədən getməli oldum. Mən 1955-ci ildə öz cəsarətli addımlarımın qurbanı oldum. Ancaq inadımdan dönmədim. Bir-iki ildən sonra yenə həmin vəzifəyə təyin etdilər".

Heydər Əliyev Azərbaycanın təhlükəsizlik orqanına rəhbərlik etdiyi dövrdə prinsipial qərarını gerçəkləşdirdi, milliləşmə prosesi, milli mənafelərimizin qorunması geniş vüsət aldı, yüksək peşəkar kadrlar yetişdirdi, eyni zamanda gələcək müstəqil Azərbaycan üçün milli təhlükəsizlik potensialını formalaşdırdı. Azərbaycanlı generalın intizamlı iş üslubunu SSRİ rəhbərliyi qəbul etməyə məcbur olaraq gətirdiyi yenilik və dinamikliyi hətta digər ittifaq respublikalarında da əxz etdirməyə çalışdı.

Heydər Əliyevin 25 il çalışdığı təhlükəsizlik orqanlarındakı nümunəvi fəaliyyəti və idarəçilikdəki misilsiz yeniliklər yaratmaq istedadı sovet rəhbərliyinin onu Azərbaycan Respublikasının ali rəhbəri vəzifəsinə seçilməsi barədə qərar verməsində həlledici amillərdən biri oldu.

Ulu Öndər Mərkəzi Komitənin rəhbəri seçildiyi ilk gündən özünəməxsus iş üslubunu idarəetmə aparatının bütün qollarında tətbiq etməyə başladı. Respublikanın və cəmiyyətin inkişafını əngəlləyən bürokratizm, korrupsiya, durğunluq və süründürməçilik hallarına qarşı həyata keçirdiyi aramsız mübarizə tədbirləri ötən əsrin 70-ci illərində Azərbaycanın ictimai-sosial, iqtisadi, elmi-mədəni mühitində tamamilə yeni ab-hava, münbit sağlam ruh və işgüzarlılığı bərqərar etdi. İttifaq respublikaları sırasında geridə qalan Azərbaycanın inkişaf strategiyası müəyyənləşdi.

"Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməlidir", - deyən Heydər Əliyev əhatəli və dönməz islahatlar proqramı həyata keçirdi.

Onun iqtisadiyyatı, sənayeni dərindən bilməsi və hər bir layihəni elmi-iqtisadi cəhətdən peşəkarcasına əsaslandırmaq qabiliyyəti SSRİ rəhbərliyi tərəfindən qeyd-şərtsiz qəbul olunurdu. Məhz o illərdə ən nəhəng sənaye müəssisələrinin, Bakı Kondisionerləri Zavodunun, Bakı Dərin Özüllər Zavodunun inşası Ulu Öndərin SSRİ Nazirlər Soveti qarşısında aylarla apardığı əzmkar mübarizə sayəsində ərsəyə gəldi. Eləcə də, o dövr üçün çətin və həddindən artıq maliyyə tələb edən metro tikintisinin geniş sənaye hərəkatına çevrilməsi Ümummilli Liderin gərgin əməyinin nəticəsi, "Ulduz", indiki "Koroğlu", "Qara Qarayev", "Neftçilər", "Nizami", "Depo", "Elmlər Akademiyası", "Memar Əcəmi" stansiyalarının tikintisi qətiyyətinin bəhrəsidir.

Heydər Əliyev 70-ci illərdə Azərbaycanın regionlarının inkişafında da əsaslı dönüş yaratdı. Paytaxt Bakı ilə yanaşı, iri sənaye şəhərlərinin inkişafı regionlarda yüz minlərlə insanın işlə təmin olunmasına səbəb oldu. Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada 400-ə yaxın yeni sənaye müəssisəsi tikilərək istifadəyə verildi. 1969-cu ildə sənaye obyektlərinin sayı 735 ədədə bərabər idisə, 1982-ci ildə bu rəqəm 1048-ə çatdırıldı. Sənaye istehsalı bir neçə dəfə artaraq ümumi daxili məhsulda 1970-ci ildəki 30 faizdən 1982-ci ildə 70 faizə yüksəldi. Sənaye müəssisələrində istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olundu. Bu, SSRİ miqyasında ən böyük iqtisadi hadisə idi.

Ulu Öndər deyirdi ki, mənim yaratdığım hər bir şey əzizdir: "Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".

Totalitar rejimin hökmranlıq etdiyi bu mürəkkəb tarixi şəraitdə prinsipial, cəsarətli və dürüst rəhbər kimi o, ideoloji-siyasi əngəllərə sinə gərərək Azərbaycanı düzgün milli inkişaf yolu ilə irəliyə aparırdı. Onun ictimai şüurdakı qorxunu darmadağın etməsi cəmiyyətdə intibah və milli özünüdərk hisslərini gücləndirmiş, xalqın milli adət-ənənələrə bağlılığı, soy-kökünə qayıdışı prosesi qarşısıalınmaz ictimai-sosial prosesə çevirmişdi. 1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin dövlət mükafatlarına layiq görülməsi, o cümlədən üç cildlik "Müasir Azərbaycan dili" dərsliyinin çapı, Konstitusiyamızda Azərbaycan dilinin rəsmi dil kimi qəbul edilməsi ana dilinə böyük ehtiramın nümunəsi idi.

Heydər Əliyev milli düşüncənin, azərbaycançılıq məfkurəsinin daşıyıcıları olan ziyalıların hamisinə çevrilmişdi, daim onları sanki çətiri altında qoruyurdu. Ziyalı elitasının, elm və mədəniyyət xadimlərinin, ictimai fikrin, düşüncənin sahibi olan azad fikirli insanların arxa-dayağı olmaqla, onları milli fikrin və azərbaycançılığın təbliğinə yönələn əsərlər yaratmağa ruhlandırırdı.

Həmin illərdə millətçilikdə günahlandırılan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Ziya Bünyadov kimi ziyalıları dəfələrlə imperiyanın təqiblərindən xilas edən Heydər Əliyev əsl milli rəhbər kimi başqa ittifaq respublikalarında da rəğbət qazanmışdı. Sovet rəhbərliyi Ziya Bünyadovun o dövrdə nəşr olunmuş "Atabəylər dövləti" kitabının dövlət mükafatına layiq görüldüyünə görə, Heydər Əliyevi millətçilikdə ittiham edirdi. Ancaq siyasi basqılardan bir addım geri çəkilməyən Ulu Öndər milli ideologiyanı təbliğ edən sanballı əsərlərin, film və musiqilərin ərsəyə gəlməsinə daha geniş və münbit şərait yaradırdı.

"Gülüstan" poemasına görə təqiblərə məruz qalmış Bəxtiyar Vahabzadənin həbs olunmasının qarşısını alan, neçə-neçə elm və incəsənət xadimini sovet imperiyasının hücumlarından qoruyan Heydər Əliyev milli amal uğrunda dayanmadan çalışırdı.

Görkəmli ziyalı və dramaturq Hüseyn Cavidin nəşini 1981-ci ildə uzaq Sibirdən Azərbaycana gətirməsi, Suriyaya səfəri zamanı klassik Azərbaycan şairi İmadəddin Nəsiminin qəbrini ziyarət etməsi, digər saysız-hesabsız vətənpərvərlik nümunələri milli irsə ehtiramla yanaşı, onun heç bir siyasi riskdən çəkinməyən nəhəng şəxsiyyət olduğunu təsdiqləyirdi.

Bu, Heydər Əliyevin ən böyük azərbaycanlı olduğunu və "Anam məni Azərbaycan üçün dünyaya gətirib" müdrik kəlamının ecazkar qüdrətini, ümummilli zənginliyini nümayiş etdirir.

Ulu Öndər sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə bugünkü Azərbaycan üçün güclü və peşəkar kadr institutunu da formalaşdırdı. Respublikanın ali və orta ixtisas təhsil şəbəkəsi genişləndirildi, SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. O, ali təhsil almağa göndərdiyi gəncləri "Azərbaycanın milli sərvəti" adlandırır, onlara böyük etimad göstərərək yüksək dövlət vəzifələrinə təyin edirdi.

Azərbaycanın milli ordu quruculuğunun sütunları da həmin mürəkkəb dövrdə qoyuldu, milli hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına məktəbin fəaliyyətə başlaması sayəsində azərbaycanlı peşəkar hərbçilər nəsli formalaşdı. Ümummilli Lider 2002-ci ildə C.Naxçıvanski adına hərbi liseyin kursantları ilə görüşdə qeyd edirdi: "Mən hələ 30 il bundan öncə müstəqillik haqqında - bəlkə də bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, düşünüb hərbi məktəb yaratmışdım. Naxçıvanski adına Hərbi lisey 30 il ərzində Azərbaycana böyük xidmətlər göstəribdir".

1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilən Heydər Əliyev bu məsul kürsüdə çalışarkən də öz doğma xalqına, vətəninə sədaqətlə qulluq etmiş, Azərbaycanla heç vaxt əlaqələrini kəsməmiş, respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdi. Azərbaycanın iqtisadi-sosial, ictimai-siyasi, humanitar həyatı ilə yaxından maraqlanmış, baş verən prosesləri daim nəzarətdə saxlamışdı.

Heydər Əliyev ittifaq daxilində başlanan siyasi böhranın dövlətin iflasına gətirib çıxaracağını görür, bu hakimiyyətin sonu olmayacağını çəkinmədən bildirirdi. Ulu Öndər demişdir: "Sovet cəmiyyəti, dövlət idarəçilik sistemi siyasi və iqtisadi böhran şəraitindədir. Millətlərarası münasibətlər son dərəcə kəskinləşmişdir. Sovet İttifaqı dağılmaqdadır. Son beş ildə Qorbaçov xalqa çox vədlər versə də, heç birini həyata keçirə bilməmişdir. Nəticədə sözlə əməl arasında boşluq, siyasi rəhbərliklə xalq arasında uçurum əmələ gəlmişdir. Xalqın rəhbərliyə etimadsızlığı, adamların sabaha ümidsizliyi artmışdır. Kommunist Partiyası nüfuzunu itirmişdir".

1987-ci ilin oktyabrında Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verən Heydər Əliyev kəskin bəyanatları ilə SSRİ rəhbərliyinin yarıtmaz fəaliyyətini ifşa edirdi. Qanlı Yanvar hadisələri zamanı SSRİ rəhbərliyinin cinayətkar əməllərini dünyaya bəyan etməsi, Mixail Qorbaçovun və əlaltılarının ona qarşı təxribat törədə biləcəyinə baxmayaraq, həyatını təhlükə altına ataraq 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək sovet ordusunun Bakıda törətdiyi insanlıq əleyhinə cinayətlərlə bağlı mətbuat konfransı keçirməsi cəmiyyətdə və dünya miqyasında böyük rezonans doğurmuşdu.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşərək müstəqil Azərbaycanın azadlıq mücadiləsini çiyinlərinə götürdü. Onun fəaliyyətinin ən mühüm və müasir tarixi mərhələsi də məhz Naxçıvana qayıdışı ilə bağlıdır. Özünün də qeyd etdiyi kimi, bu qayıdış tarixin və zamanın hökmü idi.

Heydər Əliyev həmişə müstəqillik amalı ilə yaşamışdır. O bildirirdi ki, Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan heç şübhəsiz ki, müstəqilliyini itirmiş, amma dövlətçiliyini itirməmişdi. 1991-ci il sentyabrın 3-də on minlərlə naxçıvanlının təkidi ilə Heydər Əliyevin Naxçıvan Ali Sovetinin Sədri seçilməsi Azərbaycanın siyasi həyatında möhtəşəm bir mərhələnin başlanğıcını qoydu, milli dövlətçiliyinin əsaslarının yaradılması üçün qarşısıalınmaz siyasi proses start götürdü, respublikamızı addım-addım milli müstəqilliyinə qovuşdurdu.

Ümummilli Liderin qəbul etdiyi mühüm tarixi qərarlar Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanılması təmin olundu, Müstəqil Azərbaycan Ordusunun əsası qoyuldu.

O, muxtar respublikada Azərbaycanın Türkiyə və İranla çoxəsrlik qonşuluq əlaqələrini bərpa etməklə, ağır blokada sədlərini də darmadağın etdi. Eyni zamanda xalqımızı milli birlik və milli ideya ətrafında sıx birləşdirməklə həmrəyliyi legitimləşdirdi. 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında" qərarın qəbul edilməsi bunun bariz təzahürüdür. Eyni zamanda üçrəngli bayrağımızın Naxçıvanın Ali Məclisində dalğalanması Heydər Əliyevin müstəqil Azərbaycanın milli atributlarını bərpa etməsinin fədakarlıq simvolu idi.

1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər tərəfindən Yeni Azərbaycan Partiyasının əsasının qoyulması ilə ölkəmizin siyasi taleyində fundamental dəyişikliklərin növbəti mərhələsi başlandı.

1993-cü ildə Azərbaycan çətin sınaq qarşısında olanda, müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşanda Heydər Əliyev xalqın təkidli tələbi ilə milli xilaskar kimi hakimiyyətə gəldi. Onun Azərbaycana ikinci dəfə rəhbərlik etməsindən sonra ölkəmizdə dərhal hər sahədə ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi, antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi sayəsində ölkəmiz unikal inkişaf yolu keçərək etibarlı tərəfdaş səviyyəsinə ucaldı, dünyada öz layiqli yerini tutdu. Ulu Öndərin xarici ölkələrə səfərləri zamanı keçirdiyi görüşlər, BMT və digər mötəbər beynəlxalq tribunalardan səsləndirdiyi qətiyyətli bəyanatlar, təqdim etdiyi əsaslı fakt və materiallar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılmasında əhəmiyyətli rol oynadı.

Onun unikal xarici siyasət strategiyası və fəal diplomatiyası nəticəsində dünya dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların Azərbaycana olan münasibəti kökündən dəyişdi, keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin dövlətimizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll olunması dünya birliyində qəbul edilən gerçəkliyə çevrildi.

1996-cı il Lissabon Sammitində ilk dəfə olaraq Ermənistanı çıxmaq şərti ilə ATƏT-in bütün üzvləri (53-ü) münaqişənin həll edilməsində ədalətli yanaşma sərgiləyərək Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədilər. Eləcə də, BMT, Avropa Şurası, ATƏT, İƏT və digər mötəbər təsisatların qəbul etdiyi qərar və qətnamələrdə Ermənistanın təcavüzkar dövlət olması təsbit olundu.

Uğurlu siyasət konsepsiyasının mühüm nailiyyətlərindən biri kimi Ümummilli Liderin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 28 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlarını qeyd etmək mümkündür. Bu mühüm sənədlərin təşviqi istiqamətində yürüdülən məqsədyönlü siyasət Ermənistanın dünya birliyində işğalçı simasının tanıdılmasında əhəmiyyətli rol oynadı.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyəti Azərbaycanı nüfuzlu beynəlxalq və regional təşkilatların tamhüquqlu üzvünə çevirdi. BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İƏT, QDİƏT və sair təşkilatlarla yanaşı, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təsisatlarda da ölkəmizlə fəal əməkdaşlıq genişləndi.

Qarabağı azad görmək Ulu Öndərin ən böyük arzusu idi. Onun bu arzusunu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında vaxtilə Heydər Əliyevin əsasını qoyduğu hərbi məktəbin məzunları, qəhrəman Azərbaycan övladları başa çatdırdılar.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!"

Ulu Öndərin sarsılmaz və əbədi idealları onun siyasi kursunun davamlılığındadır. Bu ideallar onun siyasi varisi, ismi Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılan İlham Əliyevin müdrik fəaliyyəti ilə uğurla davam etdirilir.

***Ramid NAMAZOV,***
***Milli Məclisin deputatı,***
***parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının sədri***



# Əbədiyaşar Lider

**Azərbaycanın müasir tarixinin mühüm bir dövrü Ulu Öndər Heydər Əliyevin müdrik dövlətçilik kursu ilə sıx bağlıdır. Xalqımız bu şərəfli və qürurlu mərhələni haqlı olaraq Azərbaycan tarixinin Heydər Əliyev dövrü kimi səciyyələndirir. Ümummilli Lider Heydər Əliyev XX əsrdə unikal idarətmə təcrübəsi və uzaqgörən siyasəti sayəsində respublikamızı keçmiş SSRİ-də yüksək inkişaf mərhələsinə ucaltmış, sovet hökumətinin ali hakimiyyət strukturlarında əvəzolunmaz xidmətlər göstərmiş, türk dünyasının nəhəng siyasi xadiminə çevrilmişdir.**

Heydər Əliyev bir-birinə zidd olan iki sistemdə - sosializm və demokratik cəmiyyət şəraitində respublikamıza başçılıq etmiş, hər iki cəmiyyətdə özünün islahatçı iş üslubu və dəmir iradəsi ilə dövlət sistemində köklü dəyişikliklərə nail olmuşdur. 1970-ci ilə qədər ittifaq respublikaları içərisində geridə qalan, az qala böhrana düçar olan Azərbaycanı bu ağır sosial-iqtisadi vəziyyətdən çıxarmış, milli inkişaf və intibaha çatdırmışdır. Azərbaycan həmin dövrdə SSRİ-də yeganə olan Bakı Məişət Kondisionerləri zavodu, regionun ən nəhəng elektrik stansiyası, Cənubi Qafqazın ən iri Poladtökmə zavodu, neft sənayesi üçün vacib olan Bakı Dərin Özüllər Zavodu və bir çox iri müəssisəni istifadəyə verməklə sovetlərin güclü sənaye mərkəzlərindən birinə çevrilmişdi.

Respublikamızın iqtisadi həyatına böyük sənaye inqilabı kimi daxil olmuş 1969-1982-ci illərdə sənaye istehsalı 2,7 dəfə artmaqla milli gəlirinin ümumi həcmini 2,5 dəfə artırmışdı, minlərlə yeni iş yerlərinin yaradılması insanların rifahını yüksəltmişdi.

Ulu Öndər Azərbaycanın milli özünüdərk, milli dövlət ideyasının da müəllifidir. Heydər Əliyevin birinci hakimiyyəti illərində Azərbaycanın dövlətçilik ənənələrinin, milli ruh və milli ideologiyasının sovet imperiyası tərəfindən məhv edilməsinin qarşısı alınmış, milli kimliyimiz qorunub saxlanılmış, azərbaycançılıq ideologiyası inkişaf edərək müstəqillik amalının gerçəkləşməsinə təkan vermişdir.

Ümummilli Lider Heydər Əliyev harada çalışmasından asılı olmayaraq, həmişə dövlətə, dövlətçiliyə sadiq olmuşdur. SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsində işləyərkən respublikamızın inkişafı üçün yorulmaz fəaliyyətini və iradəsini nümayiş etdirmiş, doğma Vətənində ən mühüm proqramların gerçəkləşməsinə nail olmuşdur. Onun yüksək dövlət vəzifələrində çalışarkən ən böyük məramı və məqsədi Azərbaycanı müstəqilliyə qovuşdurmaq idi. Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan heç şübhəsiz ki, müstəqilliyini itirmiş, amma dövlətçiliyini itirməmişdi. Azərbaycanın bir çox atributları qalmış, yaşamışdı. Cəmiyyət totalitar sistemdən çıxaraq demokratiya hüdudlarına keçmişdi. Bütün bunlar müstəqil dövlətin bərpası üçün dərin zəmin yaratmışdı.

Ermənistanın ölkəmizə qarşı ərazi iddialarının yeni başlandığı çətin və mürəkkəb dövrdə dövləti idarə edəcək güclü liderə ehtiyac vardı. Bu çətin tarixi günlərində ölkə rəhbərliyi Azərbaycanın xilası üçün Heydər Əliyevin zəngin idarəçilik bacarığından istifadə etmək, milli birliyə nail olmaq əvəzinə, onun Bakıya gəlişinə imkan vermədilər. Ulu Öndər həmin dövrdə doğulduğu doğma torpağa - Naxçıvana getmək məcburiyyətində qaldı. Ancaq onun bu gedişi xilaskarlıq missiyasının növbəti akkordu idi. Respublikamızın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da ağır ictimai-siyasi vəziyyət hökm sürürdü. Ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə fəallaşan hərbi toqquşmaları muxtar respublikanın sabahını təhlükə ilə üzləşdirmişdi. Heydər Əliyev həyatına qarşı təhlükələrə, tarixin ağır və sərt sınaqlarına rəğmən, böyük bir məsuliyyəti çiyinlərinə götürdü və 1990-cı ilin iyul ayında isə doğulduğu Naxçıvana gələrək bu fəlakətin qarşısını aldı. Qardaş Türkiyə ilə birgə "Ümid" körpüsünü açmaqla muxtar respublikanı ağır blokadadan çıxardı.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda dağınıq və nizamsız Azərbaycanın milli həmrəyliyini, xalqın milli ideya ətrafında sıx birləşməsini təmin etdi, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli bayrağını qaldırdı. Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılaraq dövlətçilik institutlarını bərqərar etməyə başladı. Bu, eyni zamanda parçalanmaq təhlükəsi ilə üz-üzə olan Azərbaycanın müstəqilliyinin təminatı, siyasi taleyi üçün yeni dövrün əsasını qoydu.

1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi və Heydər Əliyevin partiyaya sədr seçilməsi dövlət quruculuğunun möhkəm təməllərinin də qoyulması demək idi. O, 1993-cü ilin iyun ayında Qurtuluş hərəkatını zəfərlə başa çatdıraraq Azərbaycanda ikinci şərəfli siyasi missiyaya başladı. İlk növbədə, aramsız davam edən təcavüzkar Ermənistanın işğalçılıq planlarının qarşısını aldı, atəşkəsə nail olaraq peşəkar nizami Milli Ordumuzun formalaşmasını təmin etdi.

O dövrdə keçmiş iqtidar tərəfindən valyuta ehtiyatları, büdcəsi soyğunçuluqla bitirilmiş ölkənin iqtisadi imkanlarını səfərbər etmək, ölkənin neft-qaz sənayesini dirçəltmək, milli sahibkarlıq sinfini formalaşdırmaq, eləcə də, xarici sərmayəçiləri ölkəyə cəlb etmək çox çətin idi. Xarici investorları ölkəyə gətirmək, onları inandırmaq olduqca böyük siyasi məharət tələb edirdi ki, bunu da Heydər Əliyev ustalıqla həyata keçirdi. Bu baxımdan, 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin kontraktı" ölkəmizin siyasi və iqtisadi həyatında növbəti bir dönüş nöqtəsi hesab edilə bilər.

Ulu Öndər həm də böyük demokrat, siyasi qətiyyət sahibi idi. O, yeni siyasi münasibətlər sisteminin əsasını qoyaraq demokratik islahatların müəllifi kimi xatırlanır. Bilavasitə onun təşəbbüsü ilə müstəqil Azərbaycanda qanunun aliliyini təmin edən dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində islahatlar həyata keçirilmiş, insan və vətəndaş hüquq və azadlıqlarının real təmini üçün bütün lazımi əsaslar yaradılmış, Azərbaycan dünya dövlətləri arasında layiqli yerini tutmuşdur.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası idi. Ulu Öndər milli Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, Şərqdə ilk dəfə ölüm cəzasını ləğv etdi. Mətbuat üzərindən senzura götürüldü. İlk dəfə olaraq ölkəmizdə özünüidarəetmə orqanı - bələdiyyələr yarandı. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, Bakıda dünya azərbaycanlılarının qurultayının keçirilməsi, milli diasporun fəaliyyətinin canlandırılması, azərbaycançılıq ideyasının, milli özünüdərkin gücləndirilməsi Ümummilli Lider Heydər Əliyev zəkasının bəhrəsidir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 illik tarixi bir dövrdə nəhəng quruculuq, misilsiz təşkilatçılıq işləri ilə yanaşı, çox zəngin elmi-nəzəri və mənəvi irs yaratmışdır. Bu zəngin irs ən qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin qızıl fonduna daxil olmuş, milli dövlət quruculuğu prosesində əvəzsiz sərvətə çevrilmişdir. Heydər Əliyevin xarakterində əyilməzlik, vüqarlılıq, möhtəşəmlik onu həm də Vətənin, dövlətin böyük sərkərdəsi kimi ucalığını göstərir.

Heydər Əliyevin idealları onun siyasi kursunun davamlılığındadır. Ulu Öndər sona çatdıra bilmədiyi taleyüklü işləri, dövlət kursunu cənab İlham Əliyevə əmanət etməklə bir daha uzaqgörənliyini göstərdi. 2003-cü ildə xalqa müraciətində siyasi varisi İlham Əliyevi dəstəkləməyə çağırırdı. Ulu Öndər İlham Əliyevin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olduğuna, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəyinə əmin idi. Onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyevin başa çatdıracağına inanırdı. O, bu əminliyində tamamilə haqlı idi.

Prezident İlham Əliyev Ümummilli Liderin əsasını qoyduğu möhkəm bünövrə üzərində Azərbaycanı gücləndirərək artan iqtisadi imkanları, ilk növbədə, ordu quruculuğuna yönəltdi. Qüdrətli ordumuzun rəşadəti, iqtisadi gücümüz və artan beynəlxalq nüfuzumuz sayəsində Ulu Öndərin müqəddəs vəsiyyəti yerinə yetirildi. Ərazi bütövlüyümüzü təmin edərək üçrəngli bayrağımızı bütün torpaqlarımızda, Qarabağın tacı olan Şuşada, milli ləyaqət ünvanımız olan Xankəndidə qürurla dalğalandırdıq.

Bu gün müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında ən qürurlu mərhələsini yaşayır. Ulu Öndər cismən aramızda olmasa da, xalqımızın hər an qəlbindədir, çünki o əbədiyaşarlıq qazanıb. Milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev hər bir azərbaycanlının qürur mənbəyidir.

***Samir VƏLİYEV,***
***Milli Məclisin deputatı***

# İƏT Mədəniyyət Festivalı çərçivəsində Qadınların Yaradıcı Forumu







Bakıda Heydər Əliyev Fondunun tərəfdaşlığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) təşkilatçılığı ilə davam edən "İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə-2025" çərçivəsində Qadınların Yaradıcı Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forum Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının Qadınların İnkişafı Təşkilatı (WDO), Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSİA) və Yaradıcı Azərbaycan platformasının birgə təşkilatçılığı ilə baş tutub.

Forumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, "KADEM" Vəqfi Qəyyumlar Şurasının sədri Sümeyye Erdoğan Bayraktar, WDO-nun baş direktoru Afnan Al-Shuaibi, eləcə də Qazaxıstan, Bəhreyn və Özbəkistandan olan qadın innovatorlar və sahibkarlar iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən WDO-nun baş direktoru Afnan Al-Shuaibi forum təşkilatçılarına təşəkkürünü bildirib. Qadınların biliyəsaslı cəmiyyətin formalaşmasında mühüm rol oynadığına diqqət çəkib: "Bu, inkişafın və tərəqqinin göstəricisidir. Bizim əsas missiyamız qadınlara öz potensiallarını kəşf etməyə və reallaşdırmağa imkan yaratmaqdır. Qadınlar həm sahibkar, həm də mədəni innovator kimi cəmiyyətin inkişafına böyük töhfə verirlər. Biz qadınların irəliləməsi, öz işlərini tanıtması və yaradıcı layihələrini həyata keçirməsi üçün bütün imkanlarımızı səfərbər etməyə hazırıq".

"KADEM" Vəqfi Qəyyumlar Şurasının sədri Sümeyye Erdoğan Bayraktar qeyd edib ki, qadın yaradıcı sahələrə sonradan qatılan bir iştirakçı deyil, əslən bu sahənin köküdür, mahiyyətidir. "Qadının yaratdığı dəyərlər nəsildən-nəslə ötürülür. Azərbaycanın xalçaçılıq sənəti bunun ən gözəl nümunələrindəndir. Eyni şəkildə İznik və Kütahya çiniləri və digər sənət məktəbləri də qadının yaradıcı ruhu, sənətkarlıq bacarığı və estetik zövqü ilə formalaşıb. Türk motivləri və onların sənətdə təcəssümü qadının tarix boyu bu sahələrdəki rolunu açıq şəkildə göstərir", - deyə Sümeyye Erdoğan Bayraktar əlavə edib.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva isə forumun qadınların yaradıcılıq sahəsindəki imkanlarını və gələcək perspektivlərini müzakirə etmək üçün ideal platforma olduğunu deyib: "Bu istiqamətdə Azərbaycanda göstərilən dövlət dəstəyi olduqca əhəmiyyətlidir və təqdir olunmalıdır. Forumun əsas məqsədi mövcud boşluqları müəyyənləşdirmək, həmçinin İƏT ölkələri arasında bu sahədə əməkdaşlığı daha da gücləndirməkdir".

Forumun açılışından sonra Mövlanə Cəlaləddin Ruminin "Zaman dairəsindən çıx - Sevgi dairəsinə daxil ol" kəlamı üzərində qurulan konseptual vizual kompozisiya nümayiş etdirilib. Layihənin illüstrativ hissəsi rəssam Leyla Əliyevanın əsərləri əsasında təqdim edilib. Vizual konsepsiyanın müəllifi Əməkdar artist Səbinə Şıxlinskaya, musiqi tərtibatçısı isə Orxan Ağayevdir (DJ Pancho).

Qeyd edək ki, Qadınların Yaradıcı Forumu çərçivəsində "Yaradıcı sənayelərdə qadınlar üçün beynəlxalq ticarət imkanlarının genişləndirilməsi", "İnnovasiya, texnologiya və investisiyanın qadınların gücləndirilməsində rolu" və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Spikerlər qadınların rəhbərlik etdiyi yaradıcı bizneslərin dəstəklənməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və innovasiyaların mədəni və iqtisadi transformasiyanı sürətləndirməkdəki rolu barədə danışıblar. Vurğulanıb ki, Qadınların Yaradıcı Forumu qadın liderliyinin yaradıcı iqtisadiyyatda inkişafı, innovasiya və dayanıqlılığın təşviqi, eləcə də beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi istiqamətində ortaq öhdəliyi bir daha təsdiqləyir.

# Leyla Əliyeva Türkmənistanda Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun Avaza filialının açılış mərasimində iştirak edib





Dekabrın 9-da Türkmənistanın Türkmənbaşı şəhərində Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun Avaza filialının açılışı olub.



AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva iştirak ediblər.

Tədbirdə çıxış edən Oğulcahan Atabayeva Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü ilə yaradılan fondun irimiqyaslı və səmərəli iş apardığını diqqətə çatdırıb. "Fondun yaradılması hər bir vətəndaşa xeyriyyəçilik fəaliyyətində iştirak etməyə şərait yaratdı. Onun köməyi ilə yüzlərlə çətin tibbi əməliyyatlar olunub və bir sıra tibb müəssisələri müasir avadanlıqlarla təmin edilib", - deyə o bildirib.

Uşaqlara qayğının dövlət siyasətinin prioritet məsələlərdən biri olduğunu deyən Oğulcahan Atabayeva filialda uşaqlara yüksəkkeyfiyyətli tibbi yardım xidmətindən əlavə, həmçinin onların istirahəti və reabilitasiyası üçün də şərait yaradıldığını diqqətə çatdırıb. Oğulcahan Atabayeva Birləşmiş Millətlər Təşkilatının səylərinə, xüsusən də dünyada uşaqların həyat tərzinin yaxşılaşdırılmasına yönəlmiş Davamlı İnkişaf Məqsədlərinə bundan sonra da fəal dəstək olacaqlarını bildirib.

Qeyd edək ki, Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu 2021-ci ildə yaradılıb. Qurumun əsas məqsədi gənc nəslə dəstək olmaq, onların yaşayışı üçün münbit şərait yaratmaq, qayğıya ehtiyacı olan uşaqların sağlamlığının bərpasına kömək etməkdir. Bu günə qədər fondun vəsaiti hesabına Türkmənistanda və digər ölkələrdə bir çox xeyriyyə və humanitar layihələr həyata keçirilib. Fondun humanizm, ədalət və xoşməramlı prinsiplərə söykənən fəaliyyəti həmçinin dövlət tərəfindən dəstəklənir. Fond humanitar missiyasını beynəlxalq səviyyədə də həyata keçirir. BMT-nin Uşaq Fondu UNICEF ilə əməkdaşlıq edən Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu tərəfindən bu günə qədər Türkiyə, Ukrayna, Rusiya, Əfqanıstan, Tacikistan və Fələstində fövqəladə və təbii fəlakətlərdən zərər çəkmiş uşaqlara humanitar yardımlar da göndərilib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan milli mətbəxinə həsr olunan sərgidə iştirak edib





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistana səfəri çərçivəsində dekabrın 9-da Türkmənbaşı şəhərində "Galkynysh" Milli At Oyunları Qrupunun təqdimatını izləyib və Türkmənistan milli mətbəxinə həsr olunan sərgidə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Türkmənistanın qədim atçılıq ənənələrini, milli mədəniyyətini və folklorunu qoruyan "Galkynysh" Milli At Oyunları Qrupu çıxışı zamanı qonaqlara zəngin mədəni irsi nümayiş etdirib.

Nümayişdən sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistanın milli mətbəxinə həsr olunan sərgi ilə tanış olub.

Qonaqlara Türkmənistan mətbəxinin ənənələri barədə ətraflı məlumat verilib. Tədbir musiqi tamaşaları və rəqs qruplarının nömrələri ilə müşayiət olunub.

# "Qara qızılın sirri" adlı kitabın təqdimatı keçirilib






Bakı Kitab Mərkəzində SOCAR-ın dəstəyi ilə hazırlanmış "Qara qızılın sirri" adlı kitabın təqdimatı keçirilib.




SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fəxri qonaq qismində iştirak etdiyi tədbirdə ilk öncə şəhid və Vətən müharibəsi veteranlarının övladları üçün qısa tur təşkil edilib.

Daha sonra 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin vokal dərnəyinin üzvləri Tofiq Quliyevin "Dostluq mahnısı"nı ifa edib, həmçinin "Sənət" İncəsənət Mərkəzinin bədii qrupu "Dəniz" rəqsini təqdim edib.

Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı, SOCAR-ın Kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova və kitabın müəllifi, Əməkdar artist Bəhram Bağırzadə qonaqları salamlayaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya tədbirdə iştirakına və göstərdiyi diqqətə görə təşəkkürlərini bildiriblər. Tədbirdə çıxış edənlər "Qara qızılın sirri" kitabı barədə fikirlərini bölüşərək, Azərbaycanın neft tarixindən bəhs edən nəşrin əhəmiyyətini qeyd edib, kitabın növbəti cildinin ölkəmizin yeni enerji strategiyasının müəllifi, Ulu Öndər Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi"nə həsr ediləcəyini vurğulayıblar.

Tədbirdə həmçinin şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının dövlətimiz tərəfindən xüsusi qayğı ilə əhatə olunduqları diqqətə çatdırılıb. Tarixi zəfərlərimizin memarı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli ordumuza minnətdarlıq ifadə edilib. Heydər Əliyev Fondu tərəfindən şəhid ailələrinə və müharibə veteranlarına göstərilən davamlı diqqət xüsusi vurğulanaraq fondun vitse-prezidenti Leyla Əliyevanın bu kimi layihələrdə şəxsən iştirakının tədbirləri daha da əlamətdar etdiyi bildirilib.

Təqdimatın "Oxu saatı" hissəsində SOCAR könüllüləri tərəfindən uşaqlara "Qara qızılın sirri" kitabından parçalar səsləndirilib. Tədbir çərçivəsində kitabın müəllifi Bəhram Bağırzadə uşaqlar üçün xüsusi imzalama sessiyası keçirib.

Sonda uşaqlara hədiyyələr təqdim olunub.

# Anlaşma memorandumu imzalanıb





Dekabrın 9-da Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu arasında anlaşma memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandumu Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva imzalayıblar.

Qeyd olunub ki, uzunmüddətli və səmərəli əməkdaşlığın təməlini qoyan sənəd, eyni zamanda, müxtəlif sahələrdə gələcək birgə layihələrin həyata keçirilməsinə yönəlib. Sənədlə təsbit olunmuş hədəflər tərəflərin gələcəkdə birgə səmərəli fəaliyyətinə imkan yaradacaq.

Görüş zamanı sosial və təhsil sahələrində əməkdaşlıq, eyni zamanda, mədəniyyət və incəsənət üzrə layihələrin əhəmiyyəti vurğulanıb.

Görüşdə Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə bir sıra ölkələrdə uğurla sərgiləndiyi diqqətə çatdırılıb.

Hazırda sərginin Türkmənistanda da nümayiş olunması məsələsi üzərində əməkdaşlıq edildiyi bildirilib. Qeyd olunub ki, bu beynəlxalq layihə mədəni mübadilə və ətraf mühitin qorunması mövzusuna diqqət çəkmək üçün vacib bir platforma olacaq.

# İlham Əliyev diplomatiyasının daha bir uğuru

## Slovakiya Azərbaycanı dost və strateji tərəfdaş hesab edir

Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri ilə ölkələrimiz arasında əlaqələrin yeni səhifəsi açıldı. Prezidentimiz orada "Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik" sözləri ilə salamlandı. Elə yeri gəlmişkən onu da qeyd edək ki, bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin o ölkəyə ilk rəsmi səfəri idi. Doğrudur, dövlətimizin başçısı 20 il əvvəl Slovakiyaya səfər etmişdi, lakin o, rəsmi səfər deyildi.



İndiyədək hər iki ölkənin hökumət üzvlərinin çoxsaylı qarşılıqlı səfərləri də baş tutub. Keçən il Bakının evsahibliyi etdiyi COP29-da Slovakiya yüksək səviyyədə təmsil olunub. Böyük Zəfərimizin 5 illiyinə həsr olunmuş parada həmin ölkənin müdafiə naziri də qatılıb və bundan çox məmnun qalıb. Dövlətimizin başçısının Slovakiyaya hökumət üzvlərindən ibarət geniştərkibli nümayəndə heyəti ilə gəlməsi də qarşı tərəfdə məmnunluq hissi ilə qəbul edilib. Çünki bu, əlaqələrimizin, sadəcə, dostluqdan ibarət olduğunu deyil, onların böyük inkişaf potensialı olduğunu göstərir.

"Bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub. Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var". Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin mətbuata bəyanatında səsləndirdiyi bu fikirləri isə bütövlükdə dövlətimizin başçısının dost ölkəyə səfərinin preambulası hesab etmək olar. Çünki elə bu bir neçə cümlədə də ölkəmizə verilən dəyər, Prezidentimizə hörmət və ehtiram öz məzmununu tapıb.

Xatırladaq ki, keçən il ölkələrimiz arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. Bu, iki ölkə arasında əlaqələri yüksək səviyyəyə qaldıran bir sənəddir. Hazırda Azərbaycanla Slovakiya arasında enerji, nəqliyyat, müdafiə sənayesi sahələrində uğurlu əməkdaşlıq həyata keçirilir. Slovakiya şirkətlərinin işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulmasında iştirakı təqdirəlayiq bir məsələdir. Slovakiya həmçinin Avropa İttifaqı ilə əlaqələrimizin inkişafını dəstəkləyən bir ölkədir.

Prezident İlham Əliyev Bratislavada mətbuata bəyanatında Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannaməni xatırladaraq demişdir: "O sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük... Bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər. Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır. Hazırda bizim ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir. Bu gün Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini təmin etmiş olur".

Qaz ixracından söz düşmüşkən onu da qeyd edək ki, Slovakiya tərəfi üçün bu, vacib bir məsələdir və Prezident Peter Pelleqrini bunu belə dilə gətirdi: " Bu, bizim üçün indiki anda çox vacib mövzudur, çünki enerji təchizatına gəldikdə, Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır. Şirkətlərimizin rəhbərləri də buradadır. Çox şadam ki, Siz SOCAR-ın prezidentini də nümayəndə heyətinə daxil etmisiniz. Çox konkret söhbət apara bilərik. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz bu, nəyin bahasına başa gəlir".

Məlumdur ki, bu gün Azərbaycan Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayır. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə imkan verir ki, ölkəmiz "Şərq-Qərb" nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir. Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyulmaqla imkanlarımız genişləndiriləcək.

Prezident İlham Əliyev bildirib ki, Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq: "Bunun çox böyük potensialı vardır. Eyni zamanda bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 qiqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 qiqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik".

Slovakiya Prezidenti də əməkdaşlığın perspektivləri barədə nikbinliklə və inamla danışıb: "Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək. Müdafiə sənayesi çox vacib sahədir. Biz bu sahəni artıq inkişaf etdiririk... Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik. Birgə müəssisələr, birgə şirkətlər, texnologiya ötürülməsi, yəni biz bu sahədə daha da sıx çalışmaq əzmindəyik və əlbəttə ki, digər sahələr də ola bilər. Bildiyiniz kimi, slovak şirkəti Qarabağ bölgəsində "ağıllı kənd" inşa edir. Eyni zamanda bizim ixrac-idxal bankımız da müxtəlif layihələri maliyyələşdirməyə hazırdır".

Deyilənlərə Macarıstanın "Wizz Air" şirkətinin ölkələrimiz arasında uçuşlarını artırdığını, Bratislava Hava Limanından da Bakıya birbaşa uçuşlar açıla biləcəyini əlavə etsək, gözlərimiz qarşısında Azərbaycan-Slovakiya əməkdaşlığının geniş üfüqləri daha aydın görünər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın təklif etdiyi əməkdaşlıq formatları bütün tərəflərə uğur gətirir

Bölgəmizdə elə bir reallıq yaranıb, elə böyük layihələrin icrasının planları cızılıb və artıq həyata heçirilir ki, bunu heç bir aktor inkar edə bilməz. Proseslər elə bir mərhələdədir ki, hər bir aktor bu layihələrdə iştirak etməyə can atır. Mövcud müsbət tendensiyaya mane olmağa çalışan tərəflər olsa da, nəticə etibarilə, iqtisadi layihələrin həcmi, ardınca isə vəd etdiyi perspektivlər bütün tərəfləri proseslərə destruktiv mövqedən baxmaqdan uzaqlaşdırır, daha çevik və praqmatik olmağa sövq edir.

Beynəlxalq aktorlar arasında rəqabət varsa, regional aktorlar arasında proseslərə daha yaxın durma meyli görünür. Bu da son dərəcə müsbətdir. Azərbaycan üçün isə bu, ikiqat uğurdur. Çünki Zəfərdən sonra Azərbaycan tərəfinin təklif etdiyi əməkdaşlıq formatları artıq reallaşır. Bu, birmənalı olaraq Azərbaycanın nailiyyətidir. Azərbaycan Mərkəzi Asiya regionu ilə də münasibətlərin qurulmasını Cənubi Qafqaz regionu üçün perspektivli məsələyə çevirməyi bacarır. Digər tərəfdən, Gürcüstanla yüksələn xətt üzrə inkişaf edən münasibətlər, bu ölkənin cəmiyyətində destruktiv amalların deyil, konstruktiv meyil üzərindən proseslərə praqmatik baxışlı siyasətin əsas götürülməsinə dəstək verir.



Türkiyə-İran münasibətləri də region üçün vacibdir. Bir müddət əvvəl Türkiyə xarici işlər naziri Hakan Fidanın İrana səfəri zamanı verilən açıqlamalar münasibətlərinin müsbət inkişafında hər iki tərəfin maraqlı olduğunu göstərdi. Məlumdur ki, Azərbaycanla olduğu qədər, Türkiyə ilə də münasibətlərə zərbə vurmaq istəyən daxili və xarici ünsürlər var idi. O da qeyd olunmalıdır ki, İran Prezidenti Məsud Pezeşkianın hakimiyyətə gəlməsi regionda sabitləşdirici faktor oldu. Belə ki, İranın Ermənistana yeni səfir təyinatı ilə daha öncəki haqsız, tez-tez sərtləşdirilən və ən əsası diplomatiyadan uzaq ritorika özünü sakit yanaşma ilə əvəz etdi ki, bu da müsbət məqamdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən nazir bildirdi ki, Pezeşkian Prezident seçildikdən sonra Azərbaycanla münasibətləri inkişaf etdirmək üçün qarşıda konkret tapşırıqlar da qoyub. Bir daha aydın oldu ki, İranla münasibətlərin müsbət tempdə inkişafı üçün qarşı tərəf də hər şeyə rəğmən iradə nümayiş etdirir.

Seyid Abbas Əraqçinin Azərbaycana səfəri, müraciət etdiyi son dərəcə müsbət ritorika, dövlət başçımıza və xalqımıza Məsud Pezeşkianın böyük hörmətinin çatdırılması həm İran-Azərbaycan münasibətlərində Pezeşkianın şəxsi töhfəsidirsə, bu həm də Prezident İlham Əliyevin dəyişməz coğrafi mövqeyi hər zaman göz önündə tutaraq, tarixi əlaqələrin qopardılmağa çalışılmasının, sadəcə, iki ölkəyə deyil, bütün regiona mənfi təsir göstərəcəyi reallığı üzərində qətiyyətlə dayanmasının, həm də regionun gətirdiyi üstünlüklərdən yararlanaraq praqmatik vizyon ortaya qoymasının nəticəsidir.

Azərbaycan və İranın yüksəkvəzifəli rəsmilərinin qarşılıqlı səfərləri və son dövrlərdə verilən müsbət mesajlar ondan xəbər verir ki, tərəflər münasibətləri müsbət saxlamaq üçün xüsusi diqqət nümayiş etdirirlər. Araqçinin də görüşdə ölkələrimiz arasında tarixi bağları vurğulaması onu göstərir ki, bu reallıq İran tərəfindən də göz önündə tutulur. Pezeşkianın Azərbaycana səfərləri zamanı da bunun şahidi olduq.

Azərbaycan-İran-Rusiya və Azərbaycan-İran-Türkiyə üçtərəfli formatları, hazırlıq görülən işlərin daha dəqiqlik və rəsmilik qazanması üçün Azərbaycan Prezidentinin İrana səfərə dəvət edilməsi böyük layihələrin icrasının uzaqda olmadığından xəbər verir.

2024-cü ildə Azərbaycanla İran arasında ticarət dövriyyəsi 650 milyon ABŞ dolları, 2025-ci ilin 10 ayı ərzində isə 520 milyon ABŞ dolları təşkil edib. Tərəflər ticarət əlaqələrinin artırılması istiqamətində müzakirələr aparırlar. Çünki mövcud göstəricilər iki ölkənin potensialına cavab verən rəqəmlər deyil. Bunun artırılması üçün lazımi qədər potensial da, siyasi iradə də var. Araz çayı üzərində mövcud olan və bütün körpülərlə müqayisədə buraxılış qabiliyyəti ən yüksək olan Ağbənd-Kəlalə avtomobil körpüsünün 2026-cı ilin ilk aylarında istifadəyə verilməsinin planlaşdırılması İran-Azərbaycan münasibətlərinə müsbət təsir edəcək, eyni zamanda digər iqtisadi layihələrin gerçəkləşməsinə təkan verəcək. Azərbaycanla İran arasında təkcə avtomobil deyil, hava əlaqəsinin genişləndirilməsi istiqamətində də müzakirələr aparılır. Yalnız iqtisadi sahə ilə məhdudlaşmayan, həm də tərəflər arasında çoxtərəfli məsələləri ehtiva edən geniş "Yol xəritəsi" üzrə razılaşmanın əldə edilməsi ondan xəbər verir ki, ikitərəfli əlaqələr və regional inteqrasiya bütün istiqamətlər üzrə gedəcək.

İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin Milli Məclisin Sədri Sahibə Qafarova, xarici işlər naziri Ceyhun Bayramov ilə olan görüşləri ondan xəbər verir ki, gündəlik olduqca genişdir. Seyid Abbas Əraqçi ilə parlamentin Sədri arasında keçirilən görüş zamanı da qarşılıqlı səfər və görüşlərə, imzalanan sənədlərə, siyasi-iqtisadi, ticarət, nəqliyyat, mədəni-humanitar sahələrdə əlaqələrin mövcud durum və perspektivlərinə bir daha toxunuldu. Xüsusi vurğu isə Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının fəaliyyətinə və həyata keçirilməsinə edildi ki, bu çərçivədə ortaq birgə layihələrin reallaşdırılması vacibdir.

İki ölkə arasında əlaqələrin inkişafına təsir göstərən mühüm amillərdən biri də qanunverici orqanlar arasında əməkdaşlıqdır. Parlamentdə görüş zamanı bu əməkdaşlığın mövcud durum və gələcək inkişaf istiqamətlərinin önəminə də toxunuldu. 2021-ci il avqustun 5-də Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Respublikasına səfər etmişdi. Bu səfər çərçivəsində bir sıra önəmli görüşlər keçirilmişdi. Parlamentin Sədri münasibətlərin inkişafına dair faydalı müzakirələr aparmağa nail olmuşdu. Həmin səfərdə danışıqlar zamanı Azərbaycan tərəfinin regional məsələlərlə bağlı açıq mövqeyi bir daha İran tərəfinin diqqətinə çatdırılmışdı. İki ölkə arasında mövcud müsbət durum səfərin nəticəyönümlü olduğunu bir daha sübut edir. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xəttə dəstək olmaq baxımından Milli Məclis Sədrinin və bütövlükdə parlamentimizin əzmlə fəaliyyət göstərdiyindən xəbər verir.

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı***

# Orta dəhlizdə strateji hədəflərə çatmaq üçün beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq genişlənir

Azərbaycan Orta dəhlizdə strateji əhəmiyyətə malik ölkədir. Üstəlik, bu marşrutun dinamik fəaliyyətini təmin etmək üçün bir çox təşəbbüslərin müəllifidir. Ölkəmizdə bu məqsədlə uzun müddət nəqliyyat sahəsində ciddi struktur islahatları həyata keçirilib.




Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü logistika siyasəti, uğurla reallaşdırılan proqram və layihələr nəticəsində Azərbaycan regionda aparıcı nəqliyyat-logistika mərkəzinə çevrilib. Hazırda ölkəmiz 9 beynəlxalq hava limanına, regionda ən böyük Aviayük donanmasına sahibdir. Bununla yanaşı, Azərbaycanda Ələt BDTL-in tikintisi, Zəngəzur dəhlizinin açılması istiqamətində intensiv işlərin görülməsi, nəqliyyat-tranzit potensialından istifadə ilə bağlı ardıcıl proqramların icrası ölkəmizin nəqliyyat-logistika mövqeyini daha da gücləndirir. Bütün bunlarla yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə strateji layihələr Azərbaycanın qlobal nəqliyyat xəritəsində aparıcı mövqeyini təmin edib.

Bakıda "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının təsisçilərinin ümumi yığıncağının keçirilməsi də ölkəmizə olan inamın nəticəsidir. Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistan dəmiryol administrasiyalarını özündə birləşdirən təşkilat Azərbaycanın təşəbbüsü ilə yaradılıb. Bu, birgə qurum transregional daşımalarda kooperasiyanı gücləndirməyi hədəfləyir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin müdiri Aqil Əsədov "Orta dəhlizin strateji əhəmiyyəti: Trans-Xəzər marşrutu üzrə investisiya artımı və Azərbaycanın regional rolu" sərlövhəli məqaləsində Orta dəhlizin qlobal rolu barədə yazır: "Müasir nəqliyyat və logistika şəbəkələri ticarəti, idxal-ixracı, tranzit və regional əməkdaşlıqları inkişaf etdirərək ölkələrin iqtisadi gücünü artırır və beynəlxalq inteqrasiyanı sürətləndirir. Avropa İttifaqı, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri, Türkiyə, beynəlxalq inkişaf bankları, özəl sektor və regional tərəfdaşların iştirakı ilə Özbəkistanın paytaxtı Daşkənddə "Trans-Xəzər Nəqliyyat Dəhlizi (TCTC) üzrə İnvestorlar Forumu"nda səsləndirilən fikirlər də nəqliyyat əlaqələrinin prioritetliyini bir daha ifadə edir".

Müəllif dünya logistikasında Orta dəhlizin əhəmiyyətini vurğulayaraq yazır: "Trans-Caspian International Transport Route" (TITR/Orta dəhliz) ötən illərdə beynəlxalq logistika və nəqliyyat arenasında önəmli yer tutmağa başlayıb. Bu dəhlizin inkişafı Asiya ilə Avropa arasında ticarət və nəqliyyat əlaqələrini sürətləndirərək dünya ölkələri üzrə resursların bərabər paylanmasına da öz töhfəsini verməkdədir. Qlobal miqyasda - Afrika, Asiya, Avropa və digər regionları əhatə edən infrastruktur layihələri, logistika dəhlizləri və yükdaşımaların optimizasiyası kimi məsələlərin prioritetliyi nəqliyyat sektoruna diqqəti daha da artırır, sahənin investisiya cəlbediciliyini yüksəldir".

Məlum olduğu kimi, hər bir layihənin reallaşması üçün investisiya yatırılmalıdır. Həmin forumun nəticələrinə görə, Trans-Xəzər nəqliyyat əlaqələrinin inkişafı üçün Avropa İttifaqı tərəfindən xüsusi layihə reallaşdırılacaq. "Avropa Komandası" 15 milyon avroluq proqram çərçivəsində ticarət prosedurlarını təkmilləşdirməyi, gömrük səmərəliliyini artırmağı, nəqliyyat qaydalarını uzlaşdırmağı və multimodal logistikanı inkişaf etdirməyi hədəfləyir. Dövlət-özəl tərəfdaşlığı, tarif sistemləri və aktivlərin idarə edilməsi üçün dəstək təmin edilir. İnvestisiya paketinə texniki-iqtisadi əsaslandırmalar, ətraf mühitin qiymətləndirilməsi və prioritet infrastruktur layihələrin müəyyən edilməsi də daxildir. Bütün bu işlərin reallaşdırılması üçün ümumilikdə 10 milyon avro xərclənəcək. Eyni zamanda 5 milyon avro ilə də Aİ və AYİB nəqliyyat dəhlizlərinin modernləşdirilməsini və aşağıkarbonlu nəqliyyat infrastrukturuna keçidi sürətləndirmək üçün texniki və investisiya öncəsi tədqiqatları maliyyələşdirəcək.

Aqil Əsədov həmçinin qeyd edir ki, "Trans-Xəzər Nəqliyyat Dəhlizi (TCTC) üzrə İnvestorlar Forumu"nda Qazaxıstanın Aktau limanına Aİ tərəfindən 10,4 milyon, AYİB tərəfindən isə 35 milyon avro kredit verilməsi açıqlanıb. Layihəyə körpülərin genişləndirilməsi, enerjiyə qənaət edən kranların quraşdırılması və konteynerlərin daşınması qabiliyyətinin artırılması daxildir. Forumda həmçinin investorlar tərəfindən Qırğızıstan, Qazaxıstan və Özbəkistanda yol tikintisi və infrastruktur quruculuğu işlərinə ümumilikdə 300 milyon avroya yaxın investisiya qoyulacağı da bildirilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



# Qlobal nüfuzun təzahürü

30 ildən artıq tərəfdaşlıq tarixi olan Azərbaycan-ABŞ münasibətlərinin inkişafı hazırda özünün ən yüksək tarixi mərhələsini yaşayır. Bu ölkələr arasındakı ikitərəfli əlaqələrin məhz Prezident Donald Trampın Ağ Evə hər iki rəhbərliyi dönəmində müsbət istiqamətdə dinamik inkişaf etməyə başlaması danılmaz reallıqdır. ABŞ və Azərbaycan liderləri İlham Əliyev və Donald Tramp arasındakı səmimi dostluq münasibətlərindən bəhrələnən bu əlaqələr gündən-günə daha da möhkəmlənir və dərinləşir. Buna liderlər səviyyəsində baş tutan səmimi dialoqlar, aparılan telefon danışıqları, məktublaşmalar da bariz nümunələrdir.

Ağ Ev rəhbəri Donald Trampın dövlətimizin rəhbəri İlham Əliyevə xüsusi rəğbət və yüksək ehtiram göstərməsi də diqqətçəkən vacib məqamdır ki, bu özlüyündə Azərbaycan Prezidentinin qlobal nüfuzundan və dünya miqyaslı lider olmasından xəbər verir.

6 dekabr tarixində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Prezident İlham Əliyevə göndərdiyi təşəkkür məktubu da buna əyani nümunələrdən biridir. Adıçəkilən məktubunda D.Tramp Nobel Sülh mükafatına namizədliyini irəli sürmək üçün birgə məktuba görə dövlətimizin başçısına təşəkkürünü bildirir: "Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq.

Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm".

## Amerika-Azərbaycan münasibətlərində yeni səhifə

Donald Trampın ABŞ-yə rəhbərlik etdiyi hər iki dövrdə Vaşinqtonun dünyada gedən proseslərə obyektiv yanaşmasının, beynəlxalq hüquqa hörmət, sülhə və sabitliyə böyük dəstək və töhfələr verdiyinin şahidi olmuşuq. ABŞ Azərbaycanı regional güc kimi qəbul etdiyini və ölkəmizlə münasibətlərin inkişafında maraqlı olduğunu atdığı addımlarla əyani şəkildə nümayiş etdirir.

Bu il 28 May Müstəqillik Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda ABŞ rəhbəri xüsusi qeyd edib ki, biz Azərbaycan Respublikası ilə əlaqələrimizi və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, qonşunuzla sülhə nail olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığınızı yüksək qiymətləndiririk.

Bakının sülh səylərini dəstəkləyən Donald Trampın bölgədə normallaşmaya nail olunmasında, iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində oynadığı rol əhəmiyyətlidir.

Hələ cari il iyulun 19-da Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən ölkəmizin rəhbəri İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır.

Həmin zaman ABŞ lideri Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin sözügedən görüşdə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşmışdı.

Ağ Ev rəhbərinin Azərbaycanın regional sülh səylərini yaxından dəstəkləməsi ümumilikdə Cənubi Qafqazda normallaşmaya nail olunacağı baxımından böyük ümidlər yaratdı. Bu mənada cari il avqust ayında Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın rəsmi dəvəti ilə Vaşinqtona səfəri yalnız ölkələrimiz arasındakı münasibətlərin dərinləşməsi baxımından deyil, həm də regionda əldə olunacaq dayanıqlı sülh üçün xüsusi əhəmiyyəti ilə seçildi.

Tarixi səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı.

Azərbaycan Prezidentinin ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Trampın "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması ölkələrimiz arasındakı dostluğa işarə olmaqla yanaşı, 33 illik haqsızlığa son verilməsinin təzahürü oldu.

Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri dövlətlərarası əlaqələrin strateji səviyyəyə yüksəldilməsi üçün yeni siyasi-iqtisadi imkanlar yaratdı. Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bu barədə danışan Prezident İlham Əliyev Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açıldığını dedi: "Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi".

Ümumiyyətlə, ABŞ-yə səfəri zamanı Donald Tramp tərəfindən yüksək səviyyədə qarşılanma, səmimi dialoqlar, görüşlər, ölkəmizin rəhbərinə Ağ Evin rəmzi açarının təqdim olunması Prezident İlham Əliyevə qlobal səviyyədə böyük ehtiramı sərgiləyirdi.

## İlham ƏLİYEV: "Cənab Tramp bu mükafata layiqdir"

Bu il 8 avqust tarixində ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq Birgə Bəyannamə imzalandı. Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanındı.

İmzalanan Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olundu. Yəni Zəngəzur dəhlizinin (TRIPP) açılması məsələsi də sənədlərdə öz əksini tapdı.

Bir sözlə, Vaşinqton zirvəsi Cənubi Qafqazda davamlı sülh üçün mühüm zəmin oldu.

Elə əldə olunan bu tarixi uğurlara görə Ağ Evdə birgə bəyanat zamanı Prezident İlham Əliyev Donald Trampın Nobel Sülh mükafatına layiq görülməsi üçün Nikol Paşinyan ilə birgə Nobel komitəsinə müraciət etməyi təklif etdi: "Cənab Tramp bu mükafata layiqdir".

Yuxarıda vurğuladığımız kimi, Nobel Sülh mükafatına layiq görülməsinə göstərdiyi bu dəstəyə görə dekabrın 6-da Ağ Ev rəhbəri Azərbaycan Prezidentinə minnətdarlıq məktubu göndərib. Sözügedən məktubun özü də Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerini və vacib rolunu göstərir və Prezident İlham Əliyevin qlobal liderlik qabiliyyətini vurğulayır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Slovakiya münasibətlərində yeni mərhələ başlayır

Avropa ölkələri Azərbaycanla münasibətlərdə strateji tərəfdaşlığı genişləndirmək istiqamətində əməli addımlar atır. Mərkəzi Avropa ölkələrindən biri - Slovakiya da Azərbaycanla əlaqələri inkişaf etdirmək niyyətindədir. Prezident İlham Əliyevin bu ölkəyə ilk rəsmi səfəri zamanı effektiv müzakirələr aparıldı.

Bu barədə qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova bildirib. Onun sözlərinə görə, ölkələrimiz ötən il Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə imzalayıb ki, bu da münasibətləri yeni səviyyəyə qaldırıb: "Prezident İlham Əliyevin də söylədiyi kimi: "Strateji Tərəfdaşlıq Bəyannaməsində əks olunan maddələr əməkdaşlığın perspektivlərini də müəyyən edir". Rəsmi Bakı və Bratislava arasında əməkdaşlıq regionun sabitliyinə, investisiya qoyulmasının inkişafına yönəlib. Ötən il Slovakiya Prezidenti Azərbaycanın evsahibliyi etdiyi COP29-a qatılıb və bu çərçivədə ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri ətrafında müzakirələr aparılıb".

Nigar Məmmədova qeyd edib ki, Slovakiya dövlət başçısı Peter Pelleqrin də cənab Prezident İlahm Əliyevlə görüşdə ölkəsinin Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab etdiyini bildirib, Asiya və Avropanın kəsişməsində yerləşən Azərbaycanın zəngin enerji resurslarına malik olduğunu vurğulayıb.

"Azərbaycan-Slovakiya münasibətləri həm də Aİ ilə əməkdaşlıq kontekstində vacibdir. Nəzərə alsaq ki, Azərbaycanın strateji tərəfdaş kimi Aİ üçün əhəmiyyəti ilbəil artır, onda Slovakiya ilə ikitərəfli əməkdaşlıq bu prosesə əlavə töhfə verə bilər. Ötən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya çatıb. Dövlət başçımız bildirib ki, Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan onun enerji resurslarını təmin edə bilər. Prezident İlham Əliyev qeyd edib ki, artıq 14 ölkəyə qaz ixrac edən Azərbaycan yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə edəcək ki, bununla da Slovakiya və onun qonşularına qaz təchizatı daha böyük həcmdə mümkün olacaq", - deyə o bildirib.

Deputat vurğulayıb ki, Slovakiya həm də müstəqil xarici siyasət aparan dövlətdir. Bu faktor da Bakı ilə Bratislavanın ortaq cəhətlərindəndir: "Təsadüfi deyil ki, bu ölkənin baş naziri Robert Fitso ötən il Azərbaycana səfəri zamanı cənab Prezidenti "suveren xarici siyasətin tərəfdarı, beynəlxalq hüququ müdafiə edən, praqmatik şəxsiyyət" adlandırmışdı. O, bu kontekstdə Aİ-nin bəzi hallarda digərlərinə təlimat verməsinə eyham vuraraq ölkəsinin heç vaxt heç bir dövlətin daxili işlərinə qarışmadığını bəyan etmişdi. Azərbaycan üçün də dövlətlərin daxili işlərinə qarışmamaq ən əsas prinsiplərdən biridir. Rəsmi Bratislava Azərbaycanla Avropa İttifaqı arasında körpü olmağa hazırdır və Azərbaycandakı obyektiv vəziyyəti Avropa İttifaqında təqdim etmək niyyətindədir".



N.Məmmədovanın sözlərinə görə, tərəflərin marağında olan əsas əməkdaşlıq sahələrindən biri də müdafiə sənayesi sahəsidir. Özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində böyük təcrübəyə malik olan Slovakiya ilə Azərbaycan üçün texnologiya ötürülməsi və birgə istehsalın üzərində işləmək, birlikdə istehsal edilən məhsulları üçüncü ölkələrə satmaq əsas prioritetlərdən biridir. İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirak edən şirkətlər arasında Slovakiya da var. Slovakiya şirkəti Qarabağda "ağıllı kənd" inşasında öz təcrübəsini bölüşür.

Deputat hesab edir ki, cənab Prezidentin Slovakiyaya rəsmi səfəri iki ölkə arasında əməkdaşlıqda yeni, mühüm bir mərhələnin başlanğıcı olacaq.

*"Azərbaycan"*

# Türk dövlətləri əmək və sosial sahədə də birgə addımlar atacaqlar

## Bu, TDT-də ortaq rifah naminə ciddi irəliləyişlərin təmin olunmasına hesablanıb

Azərbaycan türk dünyasında əmək, məşğulluq və sosial müdafiə sahələrində liderliyi və təcrübəsi ilə TDT çərçivəsində əməkdaşlığın inkişafına yönəlmiş mühüm təşəbbüslər göstərir. Bu kontekstdə Türk Dövlətləri Təşkilatının (TDT) əmək, məşğulluq və sosial müdafiə nazirlərinin ölkəmizdə "Türk dövlətlərində ortaq rifah naminə əmək sahəsində əməkdaşlıq" adı ilə keçirilən ilk iclası təşkilata üzv ölkələr arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın yeni mühüm perspektivlərə doğru inkişafına xidmət edən mühüm addım oldu.

Təşkilata üzv olan (Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan) və müşahidəçi ölkələrin (Şimali Kipr Türk Respublikası, Macarıstan, Türkmənistan) əmək, məşğulluq, sosial müdafiə qurumlarının və TDT-nin rəhbər şəxslərinin iştirakı ilə keçən iclas 6 noyabr 2024-cü il tarixində qəbul olunmuş TDT-nin 11-ci Zirvə Toplantısının Bişkek Bəyannaməsinə istinad edilməklə əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığı gücləndirmək məqsədi daşıyıb. İclas həmçinin üzv və müşahidəçi ölkələrin bütün sahələrdə olduğu kimi, sosial sahədə də əməkdaşlığı daha da genişləndirmək, ən uğurlu təcrübələri bölüşmək və öyrənmək əzmini göstərdi.

Artıq dünya miqyasında xüsusi rola malik olan TDT-yə üzv ölkələr arasında siyasi-iqtisadi, sosial-mədəni əlaqələr daim dərinləşir və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin də iclasda qeyd etdiyi kimi, TDT əmək, məşğulluq və sosial müdafiə nazirlərinin Bakıda keçirilən ilk iclası da Təşkilata üzv ölkələrdə sosial inkişaf naminə mühüm məqsədlərin reallaşmasına xidmət edən tarixi hadisədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev TDT-nin Azərbaycan üçün əsas beynəlxalq təşkilat olduğunu bəyan edib: "Çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

Dövlət başçısının bu yanaşması bir daha sübut edir ki, sosial sahədəki irəliləyiş TDT məkanında birgə tərəqqinin vacib tərkib hissəsidir. Çünki digər türk dövlətlərində də əmək, məşğulluq və sosial müdafiə sahələrində son illər mühüm islahatlar həyata keçirilib, önəmli nailiyyətlər qazanılıb. Xüsusilə də xidmətlərin rəqəmsallaşdırılması istiqamətində uğurlu təcrübələr yaradılıb. Bu da onu göstərir ki, türk dövlətləri arasında sosial əməkdaşlığın, təcrübə mübadilələrinin genişləndirilməsi potensialı böyükdür. İclasda vurğulandı ki,



Azərbaycan özünün məşğulluq və sosial müdafiə sahəsində formalaşdırdığı geniş təcrübəni türk dövlətləri ilə bölüşməyə, eyni zamanda onların bu sahədə əldə etdikləri nailiyyətləri öyrənməyə böyük önəm verir. Bildirildi ki, bu ilk görüş ölkələr arasında daha inklüziv və dayanıqlı sosial inkişaf modelinin formalaşmasına ciddi töhfə verəcək. Toplantının əhəmiyyətinə toxunularaq qeyd olundu ki, türk dünyasının əmək, məşğulluq və sosial müdafiə sahəsində ilk dəfə bir masa ətrafında birləşməsi, "Türk Dünyası 2040 Vizyonu"na uyğun olaraq, bu sahədə əməkdaşlığın daha da gücləndirilməsi baxımından xüsusi tarixi məna daşıyır.

Qeyd edək ki, Azərbaycan təşkilata üzv və müşahidəçi olan dövlətlərin hər biri ilə əmək, məşğulluq, sosial müdafiə sahələrində ikitərəfli əlaqələrə malikdir. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə qardaş ölkə olan Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi arasında ötən dövrdə əmək, məşğulluq və sosial müdafiə sahəsində 8 sənəd imzalanıb və uğurla icra edilir. İki nazirlik arasında Əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiya fəaliyyət göstərir və komissiyanın sonuncu 12-ci iclası bu ilin sentyabr ayında Ankara şəhərində keçirilib. İki qurum, eləcə də beynəlxalq təşkilatlar (İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Sosial Təminat Assosiasiyası və s.) çərçivəsində sıx əməkdaşlıq həyata keçirir.

Bu mənada Qazaxıstanla bir neçə əməkdaşlıq sənədi və fəaliyyət planları imzalanıb, Dövlət Sosial Müdafiə Fondu ilə Qazaxıstanın Vahid Yığım Pensiya Fondu arasında Anlaşma Memorandumu qəbul edilib. Özbəkistanla da bu sahədə əlaqələr genişlənir. Belə ki, 2024-cü ildə müvəqqəti işləyən vətəndaşların hüquqlarını tənzimləyən saziş, 2023-cü ildə isə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Həmçinin Qırğızıstan və TDT-nin müşahidəçi ölkələri - Şimali Kipr Türk Respublikası, Macarıstan və Türkmənistanla da sosial sahədə əməkdaşlıq davam etdirilir, qarşılıqlı səfərlər və təcrübə mübadilələri həyata keçirilir.

Türk Dövlətləri Təşkilatının əmək, məşğulluq və sosial müdafiə nazirlərinin ölkəmizdə keçirilən, əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığın inkişafı üçün mühüm platformaya çevrilən ilk iclası isə bu münasibətlərin inkişafına təkan verir. İclasın ən mühüm faydalarından biri də o oldu ki, TDT ölkələrində sosial sahədə ən uğurlu təcrübələrdən bəhs edildi və bu təcrübələrin digər təşkilat ölkələri ilə paylaşılmasına maraq ifadə edildi. İclasın yekunu olaraq imzalanan bəyannamədə rəqəmsal transformasiya və "yaşıl keçid" dövründə heç kimin kənarda qalmaması üçün sosial müdafiə sistemlərinin təkmilləşdirilməsinin təxirəsalınmaz bir zərurət olduğu təsdiq edilir və əmək bazarındakı çağırışlara əlaqələndirilmiş cavabların hazırlanmasında TDT ölkələri arasında müntəzəm və institusional dialoqun dəyəri vurğulanır.

Bəyannamədə əmək qanunvericiliyi, əməyin təftişi, əmək hüquqlarının qorunması, əmək mühitində sağlamlıq və təhlükəsizlik, gender bərabərliyi, sosial dialoq, beynəlxalq əmək standartlarının inkişafı, rəqəmsal alətlər, süni intellekt və innovativ həllər əsasında əmək münasibətlərinin tənzimlənməsi və məşğulluq xidmətlərinin göstərilməsi və s. sahələr üzrə əməkdaşlığın gücləndirilməsi, bu sahələrdə təcrübə mübadilələrinin aparılması əksini tapır. Üzv və müşahidəçi dövlətlərin müvafiq qurumları arasında Əmək, Məşğulluq və Sosial Müdafiə məsələləri üzrə işçi qrupu da yaradılacaq.

Bu gün qlobal miqyasda baş verən proseslər süni intellektin sürətli inkişafını, rəqəmsallaşmanın genişlənməsi və avtomatlaşdırmanın yeni mərhələsinin dünya əmək bazarının strukturunu köklü şəkildə yenidən formalaşdırdığını, bir çox ənənəvi peşənin yeni məzmun qazandığını, əmək resurslarına münasibətdə fərqli bacarıq profillərinin yarandığını göstərir. Dünya İqtisadi Forumunun (DİF) 2025-ci ildə dərc olunan "İşlərin gələcəyi hesabatı"nda 2030-cu ilə qədər bugünkü iş yerlərinin 22 faizinin strukturunda dəyişikliklər gözlənildiyi bildirilir. Bu da rəqabətqabiliyyətli və gələcəyə hazırlıqlı işçi qüvvəsinin inkişafının hər bir ölkə üçün vacibliyini göstərir. Ona görə də əmək bazarının çağırışlarına uyğun olaraq, TDT-nin üzv və müşahidəçi ölkələri arasında rəqabətqabiliyyətli və gələcəyə hazırlıqlı işçi qüvvəsinin inkişafı sahəsində də əməkdaşlığı gücləndirmək nəzərdə tutulur.

Nazirlərin bu ilk görüşündə TDT ölkələrinin əmək, məşğulluq və sosial müdafiə sahələrində gələcək əməkdaşlığı üçün prioritet istiqamətlər müəyyən olundu, bu istiqamətləri əhatə edən və əməkdaşlıqda böyük perspektivlərə doğru aparan bir yol xəritəsi hazırlandı. Bu yol xəritəsi əsasında birgə fəaliyyət müstəvisində atılacaq addımlar isə türk dünyasında ortaq rifah naminə mühüm irəliləyişləri təmin edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 10 Dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür



**İnsan hüquq və azadlıqlarının qorunması və dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin təmin edilməsi müasir dövlət idarəçiliyinin ayrılmaz komponentlərindən birini təşkil edir. Bu məqsədlə müxtəlif hüquqi və institusional mexanizmlər mövcuddur ki, onların sırasında xüsusi statusa malik ombudsman institutunun fəaliyyəti olduqca əhəmiyyət kəsb edir.**

**Milli insan hüquqları təsisatı kimi ombudsman institutu hüquqi və demokratik dövlətlərin, insan hüquqlarının müdafiəsi mexanizmlərinin mühüm dayaqlarından və şərtlərindən biri olmaqla, dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətində şəffaflığın və hüquq qaydasının təmin olunması, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, habelə bu sahədə preventiv fəaliyyətin təşkili üzrə mühüm funksiyaları həyata keçirir, hüquqi dövlətin möhkəmlənməsinə, ədalətli münasibətlərin formalaşmasına və təşviqinə xidmət edir.**

# Ombudsman təsisatlarının müstəqilliyinin institusional əsasları

Obyektivlik, şəffaflıq, qanunçuluq prinsiplərinə əsaslanan ombudsmanın fəaliyyət fəlsəfəsinin mərkəzində insan ləyaqətinin və hüquqlarının müdafiəsinin müstəqil və qərəzsiz olaraq həyata keçirilməsi, vətəndaşla dövlət arasında münasibətlərdə ədalətli və bərabər yanaşmanın təmin edilməsi, sistemli təhlil və tövsiyələr vasitəsilə pozuntu hallarının qarşısının alınması, o cümlədən onun hər kəs üçün əlçatan olması dayanır. Ombudsman təsisatı həm hüquqi, həm də siyasi baxımdan unikaldır: o, dövlət orqanlarının fəaliyyətinə nəzarət edir, lakin klassik mənada nə icra, nə məhkəmə, nə də qanunverici hakimiyyətin tərkibinə daxil deyildir. Ombudsman siyasi, inzibati və maliyyə təsirlərindən asılı vəziyyətdə olmamalıdır. Əks təqdirdə onun tövsiyə və qərarları legitimlik gücünü itirə, ictimai etimadı zəifləyə və təsisatın fəaliyyəti faktiki olaraq formal xarakter daşıya bilər. Bu səbəbdən ombudsmanın müstəqilliyinin təmin olunması təkcə hüquqi norma məsələsi deyil, həm də institusional dayanıqlılığın, insan hüquqlarının real müdafiəsinin və demokratik inkişafın əsas şərtlərindən birini təşkil edir.

Ombudsman institutu dünyanın sivil ölkələrinin hüquq sistemlərində haqlı olaraq insan hüquqlarının müdafiəsində və dövlət orqanlarının fəaliyyətinin qanunauyğunluğunun təmin edilməsində vacib mexanizm hesab olunur. İnsanların hüquqlarının və qanuni maraqlarının müdafiəsi məqsədilə səlahiyyətləri çərçivəsində bütün səviyyələrdə dövlət aparatı və vəzifəli şəxslərin fəaliyyətinə geniş nəzarət funksiyası onun yüksək nüfuzunun və ictimaiyyət tərəfindən geniş şəkildə tanınmasının və qəbul edilməsinin göstəricisidir. Bu ombudsmanın statusunu xarakterizə edən və onun fəaliyyətinin effektivliyini təmin edən demokratik xüsusiyyətlərlə bağlıdır: dövlət orqanları sistemində müstəqil mövqe, onu seçən parlamentin bütün səlahiyyət müddətində dəyişilməzliyi, qanunvericilik təşəbbüsü və ya qanunvericiliyin insan hüquqları baxımından təkmilləşdirilməsi ilə bağlı təkliflərlə çıxış etmək hüququ, öz hüquq və azadlıqlarının müdafiəsinə ehtiyacı olan bütün insanlar (vətəndaşlar, əcnəbilər və qeyriləri) üçün açıq və əlçatan olması, şikayət və müraciətlərin araşdırılmasında formal prosedurların olmaması, vətəndaşlara göstərilən yardımın ödənişsiz olması və sair. Ombudsmanın fəaliyyətinin əsaslandığı bütün prinsip və prosedurlar insanların hüquq və azadlıqlarının dövlət orqanları və vəzifəli şəxslərin sui-istifadəsindən və özbaşınalığından müdafiə funksiyasının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Ombudsman institutu uzun tarixi inkişaf yolu keçmiş, müxtəlif ölkələrdə fərqli modellərlə formalaşaraq müasir dövrdə statusu beynəlxalq normalarla müəyyən edilən mühüm məhkəməyədək hüquq-müdafiə mexanizminə çevrilmişdir.

Bu gün dünyada ilk ombudsman təsisatının 1809-cu ildə İsveçdə yaradıldığı qəbul edilir. Əslində, alimlər bu təsisatın tarixi köklərini araşdırdıqda onun şərq idarəçilik sistemindən bəhrələndiyini sübut edir və ombudsman təsisatının təşəkkülünün XII Karl dövrünə təsadüf etdiyi fikri irəli sürülür. Poltavada rus qoşunları ilə döyüşdə məğlub olan XII Karl Osmanlı Türkiyəsində əvvəlcə türk sultanının müttəfiqi, sonradan isə faktiki olaraq məcburi yaşadığı zaman burada müsəlmanlar tərəfindən şəriət qaydalarına riayət edilməsinə nəzarət etmək məqsədilə sultan tərəfindən təyin edilən yüksəkrütbəli məmur-mühtasib təsisatı ilə tanış olur və bu onun diqqətini cəlb edir. XII Karlın İsveçdə olmadığı müddətdə orada hökm sürən özbaşınalığın qarşısını almaq üçün, o, Osmanlı imperiyasında mövcud olan mühtasibə oxşar təsisatın yaradılması barədə əmr verir. Belə ki, hələ İstanbulda olarkən XII Karl 26 oktyabr 1713-cü ildə "Konungens Hogsta Ombudsmanen" təsisatının (1719-cu ildən isə Justitie-Kansler - Ədliyyə kansleri) yaradılması haqqında əmr imzalayır. Kralın bu əmri Osmanlıda mövcud olan mühtasib təsisatı ilə tanışlıqdan sonra hələ Türkiyədə olarkən imzalaması müasir ombudsman institutunun müəyyən qədər türk mənşəliyinə dəlalət edir. Bu gün Pakistanda ombudsmanın "mühtasib" adlanması bu təsisatın müsəlman aləminə mənsubluğunu bir daha təsdiqləyir.

Beləliklə, İsveçin 1809-cu il Konstitusiyası ilə yeni konstitusion mexanizmin-ədliyyə ombudsmanının (Justitie-Ombudsmannen) əsası qoyulur. İsveç qanunvericiliyinə əsasən, parlamentin təyin etdiyi Ədliyyə Ombudsmanı məhkəmələrə və inzibati orqanlara nəzarət, səlahiyyətli hakim qarşısında xidməti vəzifələrinin icrası zamanı qeyri-qanuni hərəkətlərə yol vermiş, lakin öz vəzifələrini lazımi tərzdə yerinə yetirməyən şəxslərə qarşı iş qaldırmaq səlahiyyətinə malik olur.

İkinci Dünya müharibəsindən sonra insan hüquqlarının müdafiəsi sahəsinə diqqət əhəmiyyətli dərəcədə artır. Müharibənin yaratdığı ağır fəsadlar, kütləvi insan tələfatları, zorakılıq və digər hüquq pozuntuları beynəlxalq ictimaiyyəti dərindən sarsıtmaqla beynəlxalq səviyyədə insan həyatının dəyərini, şərəf və ləyaqətinə hörmətin zəruriliyini ön plana çəkir. Bu ağır təcrübə bir daha göstərir ki, insan hüquqları yalnız milli qanunvericilik çərçivəsində deyil, beynəlxalq səviyyədə də tanınmalı və qorunmalıdır.

1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (bundan sonra - BMT) yaradılması ilə insan hüquqlarının qorunması beynəlxalq münasibətlərdə prioritet məsələyə çevrildi. BMT Nizamnaməsində insan hüquqlarının və əsas azadlıqlarının təşviqi və müdafiəsi təşkilatın əsas məqsədləri sırasında yer aldı. Bu mərhələdən etibarən, insan hüquqlarının beynəlxalq səviyyədə tanınması və hüquqi çərçivəyə salınması istiqamətində mühüm addımlar atıldı.

1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş İnsan Hüquqları üzrə Ümumi Bəyannamə insan hüquqları sahəsində ilk qlobal sənəd kimi tarixə düşdü. Bəyannamə insan hüquqları və azadlıqlarının universallığını, ayrılmazlığını və ayrı-seçkiliyə yolverilməzliyini təsbit etdi. Daha sonra bu prinsiplər 1966-cı ildə qəbul edilmiş İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktla və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktla normativ baza kimi daha da möhkəmləndirildi.

Bununla belə, beynəlxalq hüquq normalarının sadəcə mövcudluğu kifayət etmirdi, hüquq və azadlıqların real olaraq təmin edilməsi və hüquq pozuntularının qarşısının alınması üzrə səmərəli, effektiv və müstəqil institusional mexanizmin yaradılmasına ehtiyac artırdı. Qeyd olunan kontekstdə demokratik və hüquqi dövlətlərin əksəriyyəti tərəfindən ombudsman institutunun tətbiqi praktikasına başlanıldı ki, bu da müvafiq sahədə beynəlxalq hüquqi və institusional çərçivələrin müəyyən edilməsi zərurətini ortaya çıxardı. Müxtəlif ölkələrdə bu sahədə fərqli modellərin mövcudluğu, habelə vahid beynəlxalq meyarların olmaması bu təsisatların effektivliyini və legitimliyini sual altına alırdı. Qeyd olunan problemlər 1991-ci ildə BMT tərəfindən Parisdə keçirilən "Milli insan hüquqları təsisatlarının Konfransı"nda müzakirə olundu və 20 dekabr 1993-cü ildə BMT Baş Assambleyasının qətnaməsi ilə "Milli insan hüquqları təsisatlarının statusuna dair Paris Prinsipləri" (bundan sonra - Paris Prinsipləri) adlı sənəd qəbul edildi.

Paris Prinsiplərinin qəbul olunmasının başlıca məqsədini milli insan hüquqları təsisatları üçün universal standartların, yəni bu təsisatların yaradılması, səlahiyyətləri, strukturu və müstəqilliyinə dair ümumi çərçivənin, onların legitimliyi və beynəlxalq səviyyədə tanınması üçün hüquqi əsasların müəyyən edilməsi təşkil edirdi. Beləliklə, Paris Prinsipləri insan hüquqları sahəsində fəaliyyət göstərən təsisatların siyasi manipulyasiyadan qorunması, onların fəaliyyətinin müstəqil, səmərəli və beynəlxalq normalara uyğun qaydada təşkilini təmin edən beynəlxalq hüquqi və institusional bələdçi rolunu oynadı.

Sənədə əsasən, milli insan hüquqları təsisatları konstitusiya və digər qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada insan hüquqlarının təşviqi və qorunması üzrə mümkün qədər geniş və dəqiq müəyyən edilmiş mandata sahib olmalıdırlar. Bu mandat ombudsmanların insan hüquqlarının müdafiəsi və təşviqi sahəsində, habelə milli qanunvericiliyin və təcrübənin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, beynəlxalq hüquqi sənədlərin ratifikasiyasının təşviqi və təmin edilməsi, BMT və onun qurumları ilə, o cümlədən digər ölkələrin milli insan hüquqları təsisatları ilə əməkdaşlığın qurulması, insan hüquqları sahəsində araşdırmaların aparılması, habelə bu sahədə təlim və tədris prosesinin həyata keçirilməsində yaxından iştirakını nəzərdə tutur.

Paris Prinsipləri ombudsman təsisatlarının müstəqilliyinin təminatlarını da müəyyən edir. Sənədə əsasən, bu təsisatlar fəaliyyətlərini həyata keçirmələri üçün əlverişli infrastruktura, xüsusilə də adekvat maliyyələşməyə malik olmalıdır. Bu maliyyələşmə onun öz personalına və binalarına sahib olmasına, hökumətdən asılı olmamasına, habelə müstəqilliyinə təsir edə biləcək maliyyə nəzarətinə məruz qalmamasına imkan verməlidir. Prinsiplər ombudsman təsisatlarının üzvlərinin təyinatının onların səlahiyyət müddətlərini dəqiq müəyyən edən normativ aktlarla tənzimlənməli olduğunu və bu mandatın plüralizmin təmin olunması şərti ilə yenilənməsini də nəzərdə tutur.

Göründüyü kimi, Paris Prinsipləri ombudsman və digər milli insan hüquqları təsisatlarının effektivliyini məhz onların müstəqil olmaları ilə şərtləndirir. Bu prinsiplər göstərir ki, yalnız müstəqil fəaliyyət göstərə bilən qurumlar insan hüquqlarının müdafiəsində təsirli rol oynaya bilər. Əks təqdirdə ombudsmanın fəaliyyət dairəsi məhdudlaşır, onlara olan ictimai inam zəifləyir və təsisat öz funksiyalarını tam olaraq yerinə yetirə bilmir.

Beləliklə, Paris Prinsipləri milli insan hüquqları təsisatları üçün beynəlxalq səviyyədə razılaşdırılmış minimum standartları müəyyən etdi. Fəaliyyətlərinin etibarlı hesab edilməsi üçün bu təsisatlar qeyd olunan minimal standartlara cavab verməlidirlər.

Milli insan hüquqları təsisatlarının fəaliyyətinin Paris Prinsiplərinə uyğunluğunun yoxlanılmasına və onların akkreditasiyasına Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansı (GANHRI) cavabdehdir. Bu qurumun əsas məqsədi milli insan hüquqları təsisatlarının müstəqilliyini və effektivliyini təmin etmək, onların beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyətini gücləndirməkdən ibarətdir. Alyans dörd regional şəbəkə - Afrika, Şimali və Cənubi Amerika, Asiya-Sakit okean və Avropa üzrə fəaliyyət göstərir və hər bir region üzrə milli təsisatların əlaqələndirilməsini təmin edir. Akkreditasiya prosesi Alyansın Akkreditasiya üzrə Alt Komitəsi (SCA) tərəfindən milli insan hüquqları təsisatlarının fəaliyyətinin Paris Prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi əsasında həyata keçirilir.

Ombudsman təsisatlarının fəaliyyətinin əsaslarını müəyyən edən mühüm beynəlxalq hüquqi sənədlərdən biri də Avropa Şurasının Venesiya Komissiyası (Hüquq Vasitəsilə Demokratiya üzrə Avropa Komissiyası) tərəfindən 2019-cu il martın 15-də qəbul edilmiş "Ombudsman Təsisatının Müdafiəsi və Təşviqi üzrə Prinsiplər"idir (bundan sonra - Venesiya Prinsipləri). Venesiya Prinsipləri ombudsman təsisatlarının müstəqilliyini, səlahiyyətlərini, fəaliyyət metodlarını və maliyyə təminatlarını, habelə bu təsisatların demokratiyanın, qanunun aliliyinin, yaxşı idarəçiliyin möhkəmləndirilməsində, insan hüquq və əsas azadlıqlarının müdafiəsi və təşviqində rolunu müəyyən edən əsas sənədlərdəndir.

Venesiya Prinsiplərinə əsasən, ombudsman təsisatları fəaliyyətlərinin həyata keçirilməsi üçün kifayət qədər və müstəqil büdcə vəsaiti ilə təmin olunmalı, bu vəsait onların vəzifə və funksiyalarının tam, müstəqil və səmərəli qaydada icrasını təmin etmək zərurətinə adekvat olmalıdır. Bununla yanaşı, ombudsman təsisatları üçün ayrılmış büdcənin maliyyə ili ərzində azaldılması da istisna edilir. Sənəddə xüsusilə vurğulanır ki, ombudsmanların büdcəsinin müstəqil maliyyə auditi keçirilərkən onun mandatının icrası ilə bağlı prioritetlərin seçilməsi deyil, yalnız maliyyə icraatının qanuniliyi nəzərə alınmalıdır.

Prinsiplərdə təsisatın fəaliyyətinin təşkili məqsədilə kifayət qədər işçi heyətə malik olması və işçilərin, habelə müavin (və ya müavinlərin) ombudsman tərəfindən bilavasitə təyin edilməsi, onların funksional toxunulmazlığa malik olmaları ombudsmanın müstəqilliyinin əsas təminatlarından biri kimi qeyd olunur.

Beləliklə, ombudsmanın müstəqilliyi onun institusional mövqeyini, səlahiyyətlərinin həyata keçirilmə imkanlarını və cəmiyyətdə nüfuzunu müəyyənləşdirən əsas meyardır. Milli insan hüquqları təsisatlarının beynəlxalq səviyyədə statusunu müəyyən edən normaların tələblərini nəzərə almaqla, ombudsmanın müstəqilliyinin əsas meyarlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Hüquqi statusun ən yüksək səviyyədə təsbit olunması - ombudsmanın mandatı və fəaliyyəti güclü hüquqi bazaya əsaslanmalı və konstitusion səviyyədə təsbit olunmalıdır. Ombudsmanın fəaliyyəti və funksiyaları ilə bağlı digər məsələlər başqa qanunlarla da müəyyən edilə bilər. Eyni zamanda Ombudsman təsisatına yüksək status verilməli və qanunvericiliklə adekvat sosial təminatlar nəzərdə tutulmalıdır.

2. Seçkili olması və səlahiyyət müddətinin dəqiq müəyyən edilməsi - ombudsman qərəzsizliyini, müstəqilliyini və legitimliyini maksimum dərəcədə təmin edəcək, qanunvericiliklə dəqiq müəyyən olunmuş prosedurlara uyğun olaraq, parlament tərəfindən müvafiq səs çoxluğu ilə seçilməlidir. Ombudsmanın səlahiyyət müddəti dəqiq müəyyən edilməli, bu müddət əsas etibarı ilə 7 ildən az olmamalı və yalnız bir dəfə təkrar seçilmə imkanı olmalıdır. Ombudsman yalnız qanunla müəyyən edilmiş aydın və əsaslandırılmış şərtlər siyahısına (bu şərtlər ən dar çərçivədə müəyyən edilməlidir) və xüsusi proseduralara uyğun olaraq vəzifədən azad edilə bilər.

3. Maliyyə müstəqilliyi - Ombudsman təsisatlarına vəzifə və funksiyalarını tam, müstəqil və effektiv şəkildə yerinə yetirməyə imkan verəcək qədər adekvat büdcə ayrılması təmin edilməlidir. Maliyyə müstəqilliyi büdcədən zəruri vəsaitin ayrılması ilə yanaşı, bu vəsaitə ombudsman tərəfindən müstəqil qaydada sərəncam verilməsini də nəzərdə tutur. O, növbəti maliyyə ili üçün büdcə layihəsinin müzakirəsinə cəlb edilməli və məsləhətləşmələr aparılmalıdır. Təsisat üçün təsdiqlənmiş büdcə maliyyə ili ərzində azaldıla bilməz. Bununla yanaşı, ayrılmış büdcə əvvəlki illərdən az ola bilməz. Ombudsmanın büdcəsi üzrə müstəqil maliyyə auditi zamanı yalnız maliyyə prosedurlarının qanuniliyi nəzərə alınmalı, mandatın icrası zamanı prioritet seçimlərinə müdaxilə edilməməlidir.

4. İnstitusional-inzibati müstəqillik - Ombudsman Aparatının kadr siyasətini, daxili strukturunu, iş rejimini və fəaliyyət planlarını sərbəst şəkildə müəyyən etməsi imkanlarını nəzərdə tutur. Ombudsman təsisatı öz funksiyalarını effektiv həyata keçirməsi üçün kifayət qədər kadr və texniki resurslarla təmin olunmalıdır. Ombudsman işçilərini, o cümlədən müavinlərini sərbəst şəkildə vəzifəyə təyin və azad edə bilməli, daxili qərarları heç bir icra orqanının təsiri olmadan qəbul etməlidir. Struktur vahidlərinin - məsələn, regional ofislərin yaradılması da bu müstəqilliyin bir hissəsi kimi qiymətləndirilir.

5. Funksional müstəqillik - ombudsman insan hüquqlarının bütün spektrini əhatə edən səlahiyyətlərə malik olmalı, fəaliyyətində heç bir dövlət orqanı və siyasi təsirdən asılı olmamalıdır. Funksional müstəqillik ombudsmanın öz mandatı çərçivəsində istənilən dövlət orqanının fəaliyyətini araşdıra bilməsi, rəsmi məlumatlara, o cümlədən məxfi və qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatlara çıxış əldə etməsi, habelə təklif və tövsiyələr verməsi ilə bağlıdır. Bu həmçinin binalara, müəssisələrə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə maneəsiz giriş hüququnu da əhatə edir. Ombudsman müəyyən edilmiş müddət ərzində rəsmi şəxslərdən və orqanlardan cavab tələb etmək hüququna malik olmalıdır ki, bu da öz növbəsində təsisatın funksional nüfuzunu təmin edir. Ombudsmanın məhkəmə hakimiyyəti ilə bağlı səlahiyyətləri yalnız bu sistemin prosessual səmərəliliyinin və inzibati fəaliyyətinin təmin olunması ilə məhdudlaşdırılır.

6. Toxunulmazlıq - Səlahiyyət müddəti ərzində ombudsmanın toxunulmazlığı (bu toxunulmazlıq onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf və elektron yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil edilir), habelə xidməti fəaliyyətlərinin həyata keçirilməsi zamanı əməkdaşlarının toxunulmazlığı təmin edilməli, inzibati və ya hüquqi təzyiqlərdən qorunmalı və yalnız qanuni əsaslarla məsuliyyət daşımalıdır. Ombudsman, müavinləri və qərarverici heyət üzvləri təsisatda rəsmi vəzifələrin icrası zamanı həyata keçirdikləri fəaliyyətə, habelə yazdıqları və səsləndirdikləri fikirlərə görə toxunulmazdır və bu toxunulmazlıq onların vəzifədən getmələrindən sonra da qüvvədə qalmalıdır.

7. Hesabatlılıq və şəffaflıq - ombudsman təsisatlarının fəaliyyəti barədə şəffaf hesabatlılıq mexanizmləri mövcud olmalı, bu hesabatlar ictimaiyyətə açıq olmalı və dövlət orqanları tərəfindən ciddi nəzərə alınmalıdır. Ombudsmanın hesabatlılığı dedikdə onun hər hansı dövlət qurumu qarşısında cavabdehliyini və hesabatlı olmasını deyil, onun fəaliyyətində şəffaflığı və ictimaiyyəti məlumatlandırması öhdəliyini nəzərdə tutur.

Ombudsmanların müstəqilliyinin institusional əsasları sırasında onların geniş mandata malik olmaları da xüsusi önəm daşıyır. Bu baxımdan, səlahiyyətlərin genişləndirilməsi və gücləndirilməsi istiqamətində davamlı işlərin aparılması zəruridir. Xüsusilə də, qanunvericiliyin təkmilləşdirilməsi prosesində ombudsmanların rolunun gücləndirilməsi onların parlament və hökumətlə bərabərhüquqlu tərəfdaş kimi tanınmalarına imkan yaradır. Bu status ombudsman təsisatlarını digər dövlət qurumlarının təsirlərindən qoruyur və hüquqyaratma fəaliyyətində müstəqil qurum kimi mövqeyini möhkəmləndirir.

Paris Prinsiplərinin əsas tələblərindən biri də məhz milli insan hüquqları təsisatlarının qanunvericiliyin təkmilləşdirilməsində rolunu, habelə milli qanunvericiliyin insan hüquqları sahəsindəki beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasını, onların ratifikasiyasını və ya həmin sənədlərə qoşulmağı təşviq və təmin etməklə bağlıdır.

Digər tərəfdən, Venesiya Prinsiplərində ombudsmanların parlamentə və ya icra hakimiyyəti orqanlarına normativ hüquqi akt layihələrinin qəbul edilməsi və ya onlara dəyişiklik edilməsi ilə bağlı təkliflər verməsi, habelə yeni qanunların qəbul edilməsi ilə əlaqədar parlamentə müraciət etməsi əsas prinsiplər sırasında göstərilir.

Müvafiq beynəlxalq sənədlərdə ombudsmanın qanunvericiliyin təkmilləşdirilməsi prosesində iştirakı ilə bağlı mandatı müəyyən edilsə də, bəzən bu mandat əsasında rəy və təkliflərin ağlabatan müddətlərdə reallaşdırılması mümkün olmur, prosesə təsir imkanları isə məhdud olur. Bu baxımdan, beynəlxalq normalarda ombudsmanların "qanunvericilik təşəbbüsü hüququ"nun verilməsi ilə bağlı imperativ tələbin təsbit olunması ombudsmanların bu sahədə fəaliyyətinin effektivliyinin əhəmiyyətli dərəcədə artırılmasına zəmin yarada, rəy və təkliflərin, habelə yeni normativ hüquqi akt layihələrinin vaxt itkisinə yol verilmədən, operativ qaydada aidiyyəti quruma təqdim edilməsinə və həmin qurum tərəfindən onlara təxirəsalınmadan baxılmasına imkan verə bilər ki, bu da insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi nöqteyi-nəzərindən olduqca əhəmiyyətlidir.

Sanksiyaların tətbiqi insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən effektiv vasitələrdən biridir. Ombudsman təsisatlarının fəaliyyətində bu praktikanın tətbiqi hüquq-müdafiə mexanizmlərinin möhkəmləndirilməsinin, müvafiq qurumlar və vəzifəli şəxslər tərəfindən ombudsmanın təklif və tövsiyələrinin icra edilməsinin, habelə sorğularının cavablandırılmasının əsas təminatlarından biri kimi çıxış edə, mandatının gücləndirilməsinə və fəaliyyətində səmərəliliyin artırılmasına xidmət edə bilər. Burada məqsəd ombudsmanların tövsiyələrinin məcburi icraedici akta çevirmək deyil, sadəcə olaraq bu tövsiyələrin rədd edilməsinin əsaslandırılmasını və ya sorğuların cavablandırılmasını hüquqi öhdəlik kimi möhkəmləndirməkdir.

Nümunə üçün qeyd olunmalıdır ki, Azərbaycan təcrübəsinə əsasən, dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirməsinə nəzarəti həyata keçirmək ombudsmanın əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Bununla əlaqədar olaraq, qanunvericiliyin tələblərinə əsasən, ombudsman, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini informasiya ehtiyatlarından istifadə qaydalarının pozulması; ətraf mühitə dair informasiyanın verilməsinin qanunazidd məhdudlaşdırılması; məxfiləşdirilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğuya mahiyyəti üzrə baxmaqdan boyun qaçırılması; informasiya əldə etmək haqqında qanunvericiliyin pozulması; jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsi; qanunla müəyyənləşdirilmiş hallardan başqa, media subyektləri və jurnalistlərin informasiya almaq hüququnun məhdudlaşdırılmasına və ya onlara informasiya verilməsindən imtina edilməsinə, yaxud qanunla müəyyən edilmiş müddətdə onların sorğusuna cavab verilməməsinə görə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyətinə malikdirlər. Bu səlahiyyətin tətbiqi informasiya əldə etmək hüququnun pozulması hallarının aradan qaldırılmasında effektiv bir vasitə olaraq tətbiq edilməkdədir. Bununla yanaşı, qanunvericiliyə əsasən ombudsmanın, milli preventiv və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinə mane olmağa görə inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti də təsbit olunmuşdur.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, Azərbaycan ombudsmanın mandatının genişləndirilməsi və müstəqilliyinin gücləndirilməsi məqsədilə Ombudsman haqqında Konstitusiya Qanununa 2023-cü ildə 30-dan çox dəyişiklik edildi. Dəyişikliklərə əsasən, ombudsmanın "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyaları təsbit olundu, ombudsmanın fəaliyyət sferasına daxil olan subyektlərin dairəsi genişləndirildi, yerli, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkələrin insan hüquqları təsisatları ilə əməkdaşlıq etməsi, bu məqsədlə müqavilələr bağlaması, beynəlxalq qurumlarda təmsil oluna bilməsi ilə bağlı müddəalar rəsmən daxil edildi. İnsan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi üzrə səlahiyyətləri genişləndirildi, habelə insan hüquqları sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlilini aparmaq, rəy və təkliflər vermək üzrə mandatı müəyyən edildi.

Müvafiq dəyişikliklər nəticəsində ombudsmanın müstəqilliyinin (maddə 5) əsasları, habelə sosial, maliyyə və digər təminatları da gücləndirildi. Bundan başqa, ombudsmanın seçilməsi ilə bağlı qaydalara da müvafiq dəyişikliklər edilməklə bu müddəaların Paris Prinsiplərinin tələblərinə tam uyğunluğu təmin edildi.

Təsadüfi deyildir ki, cari ildə Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) 29-cu Baş Assambleyasında Azərbaycanın ombudsman təsisatı üzv təsisatların səs çoxluğu ilə assosiativ üzvlükdən tam üzvlüyə qəbul edildi.

Beləliklə, qlobal çağırışlardan və yeni prioritetlərdən irəli gələrək milli insan hüquqları təsisatlarının statusunu və funksiyalarını müəyyən edən beynəlxalq normalara yenidən baxılması və müasir tələblərə uyğun qaydada təkmilləşdirilməsi istiqamətində işlər aparılmalıdır. Yuxarıda göstərilənlərlə yanaşı, müvafiq beynəlxalq normalarda bu təsisatların maliyyə müstəqilliyinin təminatlarına dair effektiv və nümunəvi mexanizmlərin müəyyən edilməsi, rəqəmsallaşma və süni intellektin tətbiqinin geniş vüsət alması ilə əlaqədar ombudsmanların rəqəmsal hüquqlar, kibermәxfilik (xüsusən də süni intellektin tətbiqi ilə bağlı şəxsi məlumatların qorunması hüququnun təmini) və alqoritmik şəffaflığın və ədalətin təmin edilməsi üzrə xüsusi mandatlarının (məsələn, monitorinq mexanizmi mandatının) müəyyən olunması, habelə fərdi məlumatların qorunması sahəsində mandatlarının gücləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində səlahiyyətlərinin genişləndirilməsi, rəy və təkliflərinin icrası mexanizmlərinin (təsir mexanizmlərinin) təkmilləşdirilməsi və möhkəmləndirilməsi, habelə ombudsmanların korporativ sosial məsuliyyət sahəsində mandatlarının ayrıca təsbit edilməsi məqsədəmüvafiq olardı.

*Nəticə olaraq qeyd olunmalıdır ki, ombudsman təsisatlarının institusional müstəqilliyi hüquqi dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının təmin olunmasının və cəmiyyətin dövlətə olan etimadının başlıca dayaqlarından biridir. Ombudsmanların müstəqilliyinin gücləndirilməsi onların effektiv fəaliyyətinin, insan hüquq və azadlıqlarının müdafiəsində real nəticələrin əldə olunmasının əsas şərtlərindəndir. Bu müstəqillik həm institusional, həm də funksional səviyyədə təmin edilməli, qorunması və möhkəmləndirilməsi üçün hüquqi, maliyyə, struktur və ictimai aspektlər üzrə davamlı işlər aparılmalıdır. Ombudsman təsisatlarının beynəlxalq standartlara uyğunlaşdırılması, onların siyasi neytrallığının təmin edilməsi və cəmiyyətin gözləntilərinə cavab verən bir model olaraq inkişaf etdirilməsi hüquq sisteminin bütövlüyünü və demokratik dəyərlərin dayanıqlılığının təminatıdır.*

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman), hüquq üzrə fəlsəfə doktoru***

# REGİONLAR

## "Polşa Azərbaycan rəssamlarının gözü ilə" Gəncədə sərgiləndi



**Gəncədə "Polşa Azərbaycan rəssamlarının gözü ilə" adlı sərgi təşkil edilmişdir. Sərgidə Bakı və Gəncədən olan rəssamların əsərləri nümayiş olunmuşdur.**

Mərasimdən əvvəl qonaqlara rəssamların yaradıcılıq prosesini yaxından izləmək, suallar vermək və rəssamlarla ünsiyyətdə olmaq imkanı yaradılmışdır.



Açılışda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Pavel Radomski, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, sərginin təşkilatçısı "Gence Mall"ın rəhbəri Şərif Ələkbərli, layihə rəhbəri Dadaş Məmmədov və başqalarının iştirak etdikləri sərgidə çıxış edənlər bu cür təşəbbüslərin şəhərin yaradıcı mühitinin inkişafı üçün xüsusi əhəmiyyət daşıdığını vurğulamış, Azərbaycan rəssamlarının Polşa mədəniyyəti ilə tanış olmaq imkanı yaratdığını qeyd etmişlər.

*"Azərbaycan"*

## Artıq "Sona bülbül" fəryad çəkmir, aşiq də "Neyçün gəlməz" deyib ah-nalə etmir

### Çünki qədirbilən xalqımız Qədir Rüstəmovun yubileyini bu dəfə azad Ağdamda qeyd edirdi

**Müzəffər Ali Baş Komandan, qüdrətli sərkərdə İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun hünəriylə düşmənin 30 illik işğalından azad edilən Qarabağ yenidən xoş günlərinə qovuşub. Belə bir ovqatla misilsiz fədakarlıqları ilə könül xoşluğunu haqq edən el-oba şirin və unudulmaz bir xatirənin işığına toplaşmışdı.**

Ağdam Muğam Mərkəzində Azərbaycan muğam sənətinin inkişafına sanballı töhfələr verən, bənzərsiz ifa tərzi ilə adını yaddaşlara həkk etmiş Xalq artisti Qədir Rüstəmovun 90 illik yubileyinə həsr edilmiş xatirə gecəsi keçirildi. Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə keçirilən tədbir qədirsevərlər üçün gerçək və dəyərli bir töhfə idi.

Tədbir Qədir Rüstəmovun həyat və yaradıcılığına həsr olunmuş maraqlı videoçarxla başladı. Təqdim edilən epizodlar xəyalları ağdamlı günlərə qanadlandırdı, unudulmaz xatirələri canlandırdı. Bu bir həqiqətdir ki, dilimiz Qədir söyləyəndə istər-istəməz "Sona bülbüllər"in fəryadı, ah-naləsi ilə təsirlənirik. Dəryada gəmisi, biçilməmiş zəmisi qalan, yarın sonsuz cəfalarını çəkib sonda qazancı dərd-qəm olan qara sevdasında sabitqədəm nakam bir aşiq canlanır xəyallarımızda. Nigaran baxışlarıyla sevgilisinin gələcəyi yollara boylanan saf məhəbbət sevdalısı könlündəki ah-zardan, tükənən səbriqərardan, bir qəmli yarının olduğunu nəzərə almayan insafsızdan gileylənib özünə dönə-dönə "Neyçün gəlməz" deyə suallar verib, amma cavab ala bilməyən aşiq üzülür. Sonda məcbur olur ki, nəyə desən and içim, bu qəlb o qəlbinəndi…





Ev sahibi olaraq Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov yubiley tədbirinin qonaqlarını salamladı. Natiq milli-mənəvi dəyərlərimizin qorunmasına, muğam sənətinin inkişafına dövlətin davamlı və yetərli qayğısından, xüsusilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə ənənəyə çevrilmiş muğam müsabiqələri keçirilməsinin milli mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən minnətdarlıqla söz açdı. Qeyd etdi ki, zamanında dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan Qədir Rüstəmov ecazkar səsi, bənzərsiz ifa tərzi ilə incəsənət tariximizə yeni və parlaq səhifələr yazmağı məharətlə bacardı. Yüksək şəxsi keyfiyyətləri, sadəliyi, təvazökarlığı, sözünün-könlünün toxluğu ilə xalqın sevimlisinə çevrildi. Könüllərdə özünə əbədi bir məhəbbət yuvası qurdu.

Gecədə çıxış edənlər unudulmaz sənətkarla bağlı xatirələrini bölüşdülər, Qarabağ və Şərqi Zəngəzurun, o cümlədən Ağdamın yenidən qurulmasından danışdılar.

Tədbirin təşkilatçıları sözlə musiqini qəribə bir vəhdətdə təqdim etməyi uğurla bacardılar. Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə respublikanın sevilən muğam ifaçılarının təqdim etdikləri Qədir Rüstəmovun repertuarına aid xalq və bəstəkar mahnılarından ibarət musiqi çələngi alqışlarla qarşılandı.

Tədbirin sonunda yubilyarın oğlu Mehdi Rüstəmov çıxış edərək xatirə gecəsinin keçirilməsində zəhməti olan hər kəsə, tədbir iştirakçılarına ailə üzvləri adından minnətdarlığını bildirdi.

Ruhun şad olsun, böyük sənətkar! Qədirbilən bir elin dəyərli övladı olduğun üçün sən xoşbəxtsən, Qədir! Şirin nəğmələrin dilimizdə, xoş avazın xəyallarımızda yaşayır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Göygöl melioratorları növbəti mövsümə hazırlaşırlar

**Su həyatdır, yəni maddi nemətlər bolluğudur, flora və faunadır. Elə buna görədir ki, Goygöl Rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin kollektivi gecəni gündüzə qataraq əkin sahələrini su ilə təmin etmək üçün əllərindən gələni əsirgəmirlər.**



Artıq kənd adamlarının işi bir qədər səngimişdir. Suvarmaya da bir o qədər ehtiyac yoxdur. Lakin belə bir dövrdə də melioratorların işi başdan aşır - onlar növbəti mövsüm üçün hazırlıq işlərinə başlamışlar. İdarənin balansında olan meliorasiya və irriqasiya sistemlərinin normal saxlanılması və qəzasız fəaliyyətini təmin etmək üçün hər iş plan çərçivəsində həyat keçirilir.

İdarənin rəisi İsmayıl Əvəzov deyir ki, Göygöl sudan əziyyət çəkən rayonlar sırasındadır: "Buna baxmayaraq, bütün imkanlardan istifadə edilərək, təsərrüfatları susuz qoymuruq. Nəticələrimiz yaxşıdır. Məsələn, cari ildə də rayonda taxılçılığın inkişafına diqqətlə yanaşılmış, 4382,5 hektarda dənli bitkilər əkilmişdir. Bunun 2310,5 hektarı buğda, 2016,5 hektarı arpa, 55,5 hektarı xəsil olmuşdur. Taxıl sahələrinin vaxtında suvarma suyu ilə təmin olunması nəticəsində zəmilərdən 12328 ton məhsul götürülmüşdür. Bundan əlavə, əkin sahələrinin vaxtında suvarılması sayəsində 437 hektarda tərəvəz, 21 hektarda dən üçün qarğıdalı yetişdirilmişdir".

Söhbət zamanı o da məlum oldu ki, cari il ərzində kənd təsərrüfatı bitkilərinin normal suvarılması üçün kanalların su təminatı təmin edilmişdir. Bu məqsədlə ümumi uzunluğu 25 kilometr olan magistral su borusundan və ümumi tutumu 6350 kubmetr olan su anbarlarından istifadə olunmuşdur. Həmin magistral su kəmərlərində və mənbələrində, eləcə də şəhərdaxili anbarlarda təmizləmə və dezinfeksiya işləri, şəhərdaxili su şəbəkəsində bərpa işləri aparılmış, baş vermiş qəzalar vaxtında aradan qaldırılmışdır.

Qeyd edək ki, Göygöl Rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi suvarma mənbələrindən ilin bu 11 ayı ərzində 85391 min kubmetr su qəbul etmişdir. Kanallarda 668 min kubmetr həcmində lildən təmizləmə işləri aparılmış, əlavə olaraq 50 hidrotexniki qurğu, 30 hidropost cari təmir edilmiş, xeyli arx və kanal kol-kosdan təmizlənmişdir. Bundan başqa, qapalı boru kəmərinin 6 kilometrində təmir işləri görülmüşdür.

İdarənin əməkdaşları sel sularının və daşqınların qarşısının alınması üçün də xeyli iş görmüşlər. Gəncəçay, Kürəkçay və Qoşqarçayın mühafizə zolaqlarında bənd bərkitmə işləri aparılmış, ağır texnikaların köməyi ilə 240 min kubmetr təmizləmə işləri görülmüşdür. İdarənin balansındakı 12 nasos stansiyası da cari təmir olunmuşdur. 302 subartezian quyusundan 198-i təmir edilərək istehlakçıların istifadəsinə verilmişdir. Təmirə yaramayan 25 nasos aqreqatı isə yenisi ilə əvəz olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## ADAU-nun tərkibində İnnovasiya Mərkəzi fəaliyyətə başlayıb

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ilə tərəfdaşlığı çərçivəsində ADAU-nun tərkibində Azərbaycan İnnovasiya Mərkəzi fəaliyyətə başlayıb.**

Mərkəzin əsas məqsədi Gəncə və ətraf bölgələrdən innovatorları bir araya gətirərək startap quruculuğu, startapların bazarlara və maliyyələşmə mexanizmlərinə əlçatanlığı, innovasiya sahəsində mentorluq və insan kapitalının inkişafına töhfə verməkdir.



Açılış tədbirində çıxış edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr müavini Rəşad Xalıqov bu qəbildən olan mərkəzlərin məhz universitet mühitində fəaliyyət göstərməsinin xüsusi əhəmiyyətini vurğulayıb. Bildirib ki, İRİA universitetlərdə innovativ sahibkarlıq təfəkkürünün inkişafına dəstək göstərmək məqsədi daşıyır. Bu baxımdan yaradılan innovasiya mərkəzləri dövlət-universitet-biznes əməkdaşlıq modelini gücləndirir və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına mühüm töhfə verir.

Sonra Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov çıxış edərək yeni yaradılan mərkəzin gənclərə və startapçılara mühüm faydaları olacağını diqqətə çatdırıb.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə bildirib ki, universitetlərlə birgə elmi layihələr, şirkətlərlə texnologiya transferi, startaplar üçün inkubasiya və akselerasiya proqramları, dövlət qurumları ilə STEM təşəbbüsləri və beynəlxalq qrant proqramlarına çıxış da bu mərkəzin fəaliyyətinin tərkib hissəsi olacaq.

ADAU-nun tərkibində yaradılan Azərbaycan İnnovasiya Mərkəzi aparat təminatı və tədqiqatlar üçün texniki avadanlıqlarla təchiz edilib. Mərkəzdə universitet tələbələri, proqram iştirakçıları və mərkəzdən istifadə edəcək şəxslər üçün kompüter laboratoriyası da mövcuddur. Bununla yanaşı, burada toplantı, təqdimatlar, öyrənmə və təlim məqsədləri üçün şərait yaradılıb.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Ölkə üzrə 354 min tona yaxın pambıq tədarük edilib

**Pambıq yığımı yekunlaşmaq üzrədir. Dekabrın 8-dək əkin aparılmış 100 468,1 hektar sahədən kondisiya çəkidə 353 914 ton xam pambıq tədarük olunub.**

Operativ məlumata əsasən, pambıq üzrə orta məhsuldarlıq 35,23 sentner/ha təşkil edir. Bu rəqəmlər müstəqillik dövründə qeydə alınan ən yüksək pambıq tədarükü və orta məhsuldarlıq göstəriciləridir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, Azərbaycanın ənənəvi pambıqçılıq rayonlarından sayılan Bərdədə bu il 8 448,8 hektar sahədə pambıq əkilib. Bu günədək sahələrdən 30 249,4 sentner pambıq yığılıb. Rayonda pambıq üzrə orta məhsuldarlıq göstəricisi 35,8 sentner təşkil edir.

Bu günədək pambıq üzrə ən yüksək məhsuldarlıq Beyləqan rayonundadır. Rayonda orta məhsuldarlıq göstəricisi 41,07 sentnerdir. Dekabrın 8-dək rayon üzrə əkin aparılmış 8 898,3 ha sahədən 36 543,9 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

## Balıq ətri, kulinariya şousu və su macərası

**Neftçala şəhərinin Bayraq Meydanında keçirilən "Balıq və Aqrar Biznes Festivalı" böyük izdiham topladı. Rayon icra hakimiyyəti, Aqrar İnnovasiya, Balıqçılıq və Akvakultura mərkəzlərinin, eləcə də "İODİCO" MMC-nin təşkil etdiyi tədbirə ölkənin müxtəlif bölgələrindən çoxsaylı qonaqlar və rəsmilər qatılmışlar.**

Açılışda RİH başçısı Mirhəsən Seyidov festivalın Neftçalanın turizm və iqtisadi potensialının tanıdılmasına verəcəyi töhfədən danışdı, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Neftçalaya səfəri zamanı istifadəyə verilən "Azerbaijan Fish Farm" MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatında yaradılan şərait haqqında məlumat verdi, həmin təsərrüfatın əhalinin məşğulluqla təmin olunmasında, Neftçalada yetişdirilən balıq nümunələrinin yerli və xarici bazarlarda tanıtdırılmasındakı rolunu qeyd etdi. RİH başçısı ölkədə ilk balıqçılıq peşə təhsilinin də Neftçala Peşə Məktəbində tədris olunması barədə festival iştirakçılarına məlumat verdi. Festival iştirakçıları həmçinin "Xıllı-Balıq", "Oryad Balıq", Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərən "AzProduct" və "Kəhf" MMC-lərin fəaliyyəti haqqında məlumatlandırıldılar. M.Seyidov sonda festivalın keçirilməsinə dəstək verən Kənd Təsərrüfatı Nazirliyinə, onun tabeliyindəki qurumlara, Gənclər və İdman, Mədəniyyət nazirliklərinə və digər dövlət qurumlarına rayon ictimaiyyəti adından təşəkkür etdi.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev və digər qonaqlar da çıxış edərək festivalın işinə uğurlar arzuladılar.

Ziyarətçilər gün ərzində balıq və aqrar məhsulların sərgisi ilə tanış oldular, balıqçılıq üzrə canlı təqdimatlara qatıldılar, rəssamların əl işlərini və yaradıcı guşələri seyr etdilər. "Balığı Neftçalada yeyərlər" kulinariya zonasında isə müxtəlif mətbəx nümunələrindən daddılar, ustad dərslərində sağlam qidalanma və balığın düzgün bişirilməsi barədə məlumat aldılar.

Kür çayında qayıqla gəzinti, kanoe nümayişləri və balıq körpələrinin suya buraxılması da festivalın yaddaqalan tədbirlərindən oldu. Konsert proqramları, DJ çıxışları və uşaq əyləncə zonaları isə tədbirdə bayram ovqatı yaratmışdı. Bu ovqatla Xəzər dənizinin, Kür çayının və balıqçılıq təsərrüfatlarının satışa çıxardıqları balıq məhsulları və digər aqrar məhsullardan alanlar az olmadı.





Sonda Kənd Təsərrüfatı Nazirliyi və Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən festivalda fəal iştirak edən şirkətlərin nümayəndələrinə təşəkkürnamələr təqdim edildi. Beləcə, Neftçalanın ilk Balıq Festivalı bölgənin balıqçılıq ənənəsinin və turizm imkanlarının tanıdılması baxımından uğurlu və rəngarəng bir layihə kimi yaddaşlara yazıldı.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Ruben Vardanyanın məhkəməsində ifadələr dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 9-da davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxsin nümayəndəsi Azər Manafov ifadəsində bildirib ki, Ermənistanın mina terroru nəticəsində zərər çəkib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında baş vermiş mina partlayışı nəticəsində hadisə yerində olan bir neçə nəfərin yaralandığını, Cavid İsmayılovun isə həlak olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs Yadulla Abuşov diqqətə çatdırıb ki, Kəlbəcər rayonu ərazisində düşmən tərəfindən minaatanlar və digər silahlardan açılan atəşlər nəticəsində bir neçə şəxs həlak olub, özü və daha bir neçə şəxs isə yaralanıb.

Zərərçəkmiş şəxs Sahil Salahov ifadəsində bildirib ki, Xocavənd rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan mərminin yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs qeyd edib ki, hadisə nəticəsində bir neçə şəxs həlak olub.

Məhkəmə prosesi digər zərərçəkmiş şəxslərin ifadələrinin elan olunması ilə davam etdirilib. Belə ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs əvvəlki proseslərdə məhkəməyə müraciət ünvanlayaraq iclaslarda üzrlü səbəbdən iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildirən ərizələr göndəriblər. Ötən məhkəmə iclaslarında tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

İclasda həmçinin cinayət işi materiallarında olan ekspertiza rəyləri, protokollar və iş üzrə sübuti əhəmiyyət kəsb edən digər sənədlər elan olunub.

Sonra məhkəməyə sədrlik edən bildirib ki, bununla da cinayət işi üzrə zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ibtidai istintaq zamanı verdikləri ifadələrinin məhkəmədə elan edilməklə tədqiqi başa çatıb.

Təqsirləndirilən şəxs Ruben Vardanyan vəsatətlə çıxış edərək, cinayət işi ilə bağlı bəzi sənədlərlə tanış olmaq istədiyini bildirib, eləcə də bəzi sənədlərin cinayət işindən xaric olunmasını xahiş edib.

Məhkəməyə sədrlik edən Zeynal Ağayev təqsirləndirilən şəxsin konkret hansı sənədlərlə tanış olmaq istədiyi müəyyənləşdirildikdən sonra ona müvafiq şərait yaradılacağını bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəməyə müraciət edərək cinayət işi üzrə digər zəruri sənədlərin də tədqiq olunmasını təklif edib.

Məhkəmənin növbəti iclası dekabrın 12-nə təyin edilib.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Hava şəraiti yağıntılı olacaq, dağlıq ərazilərdə qar yağacaq

Azərbaycanda dekabrın 10-na gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağacağı, bəzi yerlərdə intensivləşəcəyi gözlənilir. Gün ərzində ayrı-ayrı yerlərdə aramsız və güclü olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-9, gündüz 10-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, bəzi şərq rayonlarında isə bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7, gündüz 10-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı bildirilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava şəraiti bəzi yerlərdə arabir yağıntılı olacaq, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava şəraiti bəzi yerlərdə arabir yağıntılı olacaq, dağlıq ərazilərdə qar yağacaq, arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-5, gündüz 8-11 dərəcə isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava bəzi yerlərdə arabir yağıntılı olacaq, dağlıq ərazilərdə qar yağacaq. Ayrı-ayrı yerlərdə yağıntıların leysan xarakterli intensiv və güclü olacağı ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 4-7 dərəcə isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacaq, arabir duman olacaq, qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7, gündüz 10-13 dərəcə isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda bəzi yerlərdə arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Şimal-şərq küləyi saniyədə 5-10, arabir 15 metr təşkil edəcək. Havanın temperaturu gecə 5-8, gündüz 8-11, dağlarda gecə 2-4, gündüz 4-6 dərəcə isti təşkil edəcək.

Abşeron Rayon İcra Hakimiyyətinin 15 aprel 1999-cu il 096 nömrəli sərəncamına əsasən, Azərbaycan Respublikası İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisələri tərəfindən 21 may 2003-cü ildə Abbasov Qiyas Saleh oğluna (ŞV: AZE 15668989) verilmiş 28 nömrəli çıxarış (əmrdən çıxarış) itdiyi üçün etibarsız sayılır.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
"Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir"
Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Slovakiyaya tarixdə ilk dəfə rəsmi səfər edib
Donald Tramp İlham Əliyevə bir daha minnətdarlığını bildirib
Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi münasibətlər yüksək səviyyədədir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# Bir ildə dünya üzrə 67 jurnalist öldürülüb

"Sərhədsiz reportyorlar" (RSF) təşkilatının məlumatına görə, Qəzza zolağı, Meksika, Ukrayna, Sudan və Suriya jurnalistlər üçün xüsusilə təhlükəli ölkə və bölgələrdir. Rusiya isə ən çox sayda xarici jurnalistin həbs olunduğu ölkədir.




Son 12 ay ərzində dünyada 67 jurnalist peşə vəzifələrini yerinə yetirərkən öldürülüb. RSF insan haqları təşkilatının illik mətbuat azadlığı hesabatında bildirib ki, media əməkdaşlarının böyük əksəriyyəti müharibələrin və ya cinayətkar şəbəkələrin qurbanı olub. Qəzza zolağı 29 jurnalistin öldürüldüyü ən təhlükəli bölgə olaraq qalır. Ardınca 9 jurnalistin qətlə yetirildiyi Meksika gəlir. Rusiyanın tammiqyaslı işğalına qarşı özünü müdafiə etməyə davam edən Ukraynada, eləcə də Sudan və Suriyada da jurnalistlər xüsusi risk altındadırlar.

Təşkilatın hesabatına görə, dünya üzrə 135 media işçisi itkin düşüb, hətta bəziləri 30 ildən çoxdur tapılmır. Bu cür hallar 100-dən çox ölkədə qeydə alınıb, lakin əksəriyyəti Yaxın Şərqdə və Latın Amerikasındadır. RSF-nin məlumatına görə, Suriyada daha çox sayda jurnalistin itkin düşməsi qeydə alınıb. Devrilmiş diktator Bəşər Əsədin hakimiyyəti dövründə yoxa çıxan bir çox media işçisi bu günə qədər itkin düşmüş olaraq qalır.

"Öldürülən jurnalistlərin sayının çox olması dəhşətlidir", - deyən RSF Almaniya bölməsinin icraçı direktoru Anya Osterhaus bildirib: "Bu, ordular, hərbiləşdirilmiş qruplar və cinayətkar şəbəkələr tərəfindən törədilən sistematik zorakılığın nəticəsidir".

# BMT 135 milyon insana 33 milyard dollarlıq qlobal humanitar yardım göstərilməsi üçün çağırış edib

BMT-nin Humanitar İşlərin Koordinasiyası Ofisinin (UNOCHA) 2026-cı il üçün qlobal humanitar çağırışla bağlı hesabatı dərc olunub. Sənəddə bildirilir ki, BMT və onun tərəfdaşları dünya ictimaiyyətinə 33 milyard dollarlıq humanitar yardım üçün müraciət edirlər.



"Prioritet 87 milyon insana son dərəcə zəruri yardım göstərməkdir. 2026-cı il üçün hədəfimiz 50 ölkədə 135 milyon insana yardım etməkdir. Maliyyələşdirmənin kəskin şəkildə azaldılmasına və humanitar işçilərə qarşı hücumlara baxmayaraq, 2025-ci ildə 98 milyon insana kömək edə bildik", - deyə hesabatda qeyd olunur.

Yardımın ilk növbədə müharibələrdən, iqlim fəlakətlərindən, zəlzələlərdən, epidemiyalardan və aclıqdan ən çox əziyyət çəkən bölgələrə yönəldiləcəyi vurğulanır. 23 milyard dollarlıq yardım hesabına 87 milyon insanın həyatını dərhal xilas etmək planlaşdırılır. Hesabatda həmçinin qeyd olunur ki, 2025-ci ildə BMT-nin Humanitar Yardım Proqramı üçün cəmi 12 milyard dollar toplanıb ki, bu da son 10 ilin ən aşağı göstəricisidir. Vəsait çatışmazlığı səbəbindən bu il 2024-cü illə müqayisədə 25 milyon az insan yardım alıb. Sənəddə deyilir: "Nəticələr dərhal özünü büruzə verdi: aclıq artdı, səhiyyə sistemləri böyük təzyiq altında qaldı, təhsil geriləd, minatəmizləmə işləri dayandırıldı və ailələr bir-birinin ardınca zərbələr aldılar. Sığınacaq, yardım, qorunma yoxdur". Hesabatda qeyd olunur ki, mülki şəxslər beynəlxalq humanitar hüquqa tamamilə məhəl qoymurlar, əksəriyyəti yerli olan 320 nəfərdən çox humanitar işçi öldürülüb.

2026-cı il üçün ən böyük fərdi yardım planı şokedici dərəcədə zorakılıq və dağıntı yaşayan işğal olunmuş Fələstin əraziləri üçündür. 3 milyon insana kömək etmək üçün 4,1 milyard dollar lazımdır. Dünyanın ən böyük köçkünlük böhranı olan Sudanda isə 20 milyon insan üçün 2,9 milyard dollar tələb olunur. Ən böyük regional plan - 2,8 milyard dollar Suriyadakı 8,6 milyon insan üçündür.

BMT-nin Humanitar İşlər üzrə Baş Katibinin müavini və Təcili Yardım Koordinatoru Tom Fletçer vurğulayıb: "Biz daha çox səlahiyyəti yerli təşkilatlara veririk və daha çox resursu birbaşa ehtiyacı olanlara yönəldirik. Biz humanitar işləri idealizm, təvazökarlıq və ümidlə yeniləyirik və yenidən qururuq".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və əməkdaşları iş yoldaşları Tahirə Ələkbərovaya həyat yoldaşı

**AZAD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Nərminə Əsgərovaya əzizi

**HÜSNİYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə bağsağlığı verir.

---

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin rəhbərliyi və kollektivi

**ŞƏMSƏDDİN İSMAYIL OĞLU ƏDİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə bağsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Qorxmaz Həsənova əzizi

**ELBƏNİZ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Yalçın Rəfiyevə əzizi

**İSMAYIL MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4131**
**Sifariş 2498**

**Qiyməti 60 qəpik**